

Milli azadlıqdan şirin nemət yoxdur!

# Azərbaycan-Serbiya: Dostluq və faydalı əməkdaşlığın yeni mərhələsi



Bax səh. 4-5

YENİ AZƏRBAYCAN
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir
Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

17 fevral 2026-cı il, çərşənbə axşamı
№ 030 (7097)
Qiyməti 60 qəpik

# Artıq sülhə nail olunub...

Bax səh. 3




Bax səh. 2

# Avrasiyada əməkdaşlıq üçün güclü siyasi zəmanət...

## İlham Əliyev: Azərbaycan Bakıdan Aralıq dənizinə neft kəməri, Bakıdan İtaliyaya qaz kəməri kimi transmilli layihələrə start verən və onlara rəhbərlik etməyi bacaran bir ölkədir

# Birinci vitse-prezidentdən sərrast cavab

Bax səh. 3

# Yeni Azərbaycan Partiyası inam və etimad ünvanıdır

Fevralın 13-də Yeni Azərbaycan Partiyası (YAP) Xətai rayon təşkilatının təsis olunmasının 33 illiyinə həsr olunmuş tədbir keçirilib.

Tədbirdən öncə müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsi ziyarət olunaraq əziz xatirəsi ehtiramla yad edilib.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Sonra Yeni Azərbaycan Partiyasının yaranması və inkişaf tarixindən bəhs edən videoçarx nümayiş olunub.

Tədbirdə YAP Xətai rayon təşkilatının sədri Ramil Mirzəyev, Xətai Rayon İcra Hakimiyyətinin başçısı Rafiq Quluyev, YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Mixail Zabelin, Milli Məclisin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc, Milli Məclisin deputatları Vüqar Rəhimzadə və Pərvanə Vəliyeva, YAP Mərkəzi Aparatının İnformasiya texnologiyaları və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Nurlan Qələndərli və Elm və Təhsil Nazirliyinin Akademik Y.H.Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutunun baş direktoru, akademik Vaqif Abbasov çıxış ediblər.

Çıxışlarda Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə Yeni Azərbaycan Partiyasının yaradılmasının müasir dövlətçilik tariximizin dönüş nöqtəsi olduğu bildirilib. Qeyd olunub ki, Yeni Azərbaycan Partiyası ötən müddət ərzində Heydər Əliyev ideyaları əsasında və Prezident İlham Əliyevin rəhbərliyi ilə önəmli nailiyyətlərə imza ataraq ümumxalq etimadı qazanıb.

Çıxışlarda Azərbaycanın ərazi bütövlüyü və mütləq suverenliyinin bərpasının tarixi əhəmiyyəti xüsusi vurğulanaraq qazanılan nailiyyətlərin əsasında milli maraqlara söykənən məqsədyönlü siyasətin və xalq-iqtidar birliyinin dayandığı qeyd edilib...

Bax səh. 6




# Bir kəndin faciəsi

Bax səh. 7

# 5 milyard dollar...

## Qəzza necə bərpa ediləcək?



Bax səh. 7

# Qarşılıqlı etimad quruculuğunda növbəti addım...

Hazırda Cənubi Qafqazda dayanıqlı sülhün və sabitliyin təmin olunması üçün əlverişli mühit yaranıb. Ötən ilin avqustunda Vaşinqtonda Azərbaycanla Ermənistan arasında sülh sazişinin paraflanmasından sonra tərəflər arasında etimadın formalaşması üçün addımlar atılır. Vaşinqton razılaşmalarında əksini tapan məqamlardan biri tərəflər arasında etimad mühitininin formalaşdırılması prosesində vətəndaş cəmiyyəti nümayəndələrinin qarşılıqlı səfərlərinin təşkil olunmasıdır.

Xatırladaq ki, ötən ilin oktyabr və noyabr aylarında bu cür səfərlər reallaşmışdı. Belə ki, Ermənistan və Azərbaycan vətəndaş cəmiyyəti nümayəndələrinin iştirakı ilə "Sülh körpüsü" Təşəbbüsü çərçivəsində ilk görüş 2025-ci il oktyabrın 21-22-də İrəvanda keçirilib. Həmin görüşdə qarşıdakı 6 ay ərzində...

Bax səh. 6

# Prezident İlham Əliyevin Münxendə ikitərəfli görüşləri...







*Nardar BAYRAMLI*

Hazırda dünya gündəminin əsas mövzularından biri Almaniyada keçirilən Münxen Təhlükəsizlik Konfransında müzakirə edilən məsələlərdir. Çünki Münxen Təhlükəsizlik Konfransı dünyada mövcud problemlərin, o cümlədən təhlükəsizlik məsələlərinin müzakirə edildiyi mühüm beynəlxalq platformadır. Sayca 62-ci Münxen Təhlükəsizlik Konfransı (MSC 2026) geniş proqrama malik idi. Dünyada təhlükəsizlik məsələlərinin ən yüksək səviyyədə müzakirə olunduğu bu mühüm konfransda 60 dövlət və hökumət başçısı, 120 ölkədən 200-dən çox nazir, BMT, NATO, Avropa İttifaqı kimi mötəbər beynəlxalq qurumlardan 40-dan çox rəsmi şəxs iştirak edib.

Azərbaycan Prezidenti İlham Əliyevin Münxen Təhlükəsizlik Konfransına dəvət alması, aktual mövzulara həsr olunmuş tədbirlərdə iştirakı, ikitərəfli görüşləri Azərbaycanın dünya üçün əhəmiyyətini bir daha təsdiqləyir. Dövlət başçısının müxtəlif tədbirlərdə iştirakı ilə yanaşı, keçirdiyi ikitərəfli görüşlərdə də səmərəli müzakirələr aparılıb. Qeyd edək ki, Prezident İlham Əliyev fevralın 13-də İraq Kürdüstan Regionunun başçısı Neçirvan Bərzani ilə görüşüb. Söhbət zamanı Neçirvan Bərzaninin Azərbaycana səfərləri, həmçinin dövlətimizin başçısı ilə görüşləri məmnunluqla xatırlanaraq, bütün bunların əməkdaşlığın perspektivlərinin müzakirəsi baxımından yaxşı imkan yaratdığı bildirilib. Azərbaycan Prezidenti və İraq Kürdüstan Regionunun başçısı iqtisadi, ticari, mədəni, humanitar sahələrdə əlaqələrin inkişafı ilə bağlı fikir mübadiləsi aparıb, qarşılıqlı maraq doğuran məsələləri müzakirə ediblər. İlham Əliyev Neçirvan Bərzanini ölkəmizə səfərə dəvət edib.

**Almaniya sülh prosesini dəstəkləyir**

Fevralın 14-də isə Prezident İlham Əliyev Bundestaqın xarici siyasət komitəsinin sədri Armin Laşetlə görüşüb. Armin Laşet Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin irəli aparılması ilə bağlı Vaşinqtonda əldə edilmiş nailiyyətlər münasibətilə dövlətimizin başçısına təbriklərini çatdırıb. Prezident İlham Əliyev təbriklərə görə minnətdarlığını bildirərək sülhün əldə olunmasının bütövlükdə regionun inkişafı baxımından mühüm əhəmiyyət kəsb etdiyini deyib. Görüşdə, həmçinin Azərbaycanın regional sülh və əməkdaşlıq təşəbbüsləri barədə söhbət açılıb.

Azərbaycanla Almaniya arasında ikitərəfli əlaqələrin müxtəlif istiqamətlərdə, o cümlədən siyasi, iqtisadi-ticari, enerji və digər sahələrdə inkişaf etdiyi vurğulanıb. Avropanın enerji təhlükəsizliyində Azərbaycanın oynadığı mühüm rola toxunulub, parlamentlərarası əməkdaşlığın genişləndirilməsi, ikitərəfli münasibətlərin perspektivləri ilə bağlı fikir mübadiləsi aparılıb. Görüşdə Azərbaycanın dinlərarası və mədəniyyətlərarası dialoqda oynadığı rol da vurğulanıb, bu təcrübənin beynəlxalq çərçivədə bölüşülməsinin əhəmiyyəti qeyd edilib.

**Azərbaycan-Bolqarıstan əlaqələri inkişaf edir**

Münxendə Prezident İlham Əliyev Bolqarıstan Prezidenti İliyana Yotova ilə də görüşüb. Azərbaycanda keçirilmiş Mədəniyyətlərarası Dialoq Forumunda iştirak etdiyini vurğulayan Bolqarıstan Prezidenti mədəniyyətimizlə yaxından tanış olduğunu, Novruz bayramı adət-ənənəmizin və muğam musiqimizin onda dərin təəssürat hissi yaratdığını bildirib. İliyana Yotova Heydər Əliyev Fondunun Bolqarıstanda "Trapezitsa" Memarlıq Muzeyi Qoruğunun bərpasına göstərdiyi dəstəyi xatırladaraq, buna görə minnətdarlığını ifadə edib. O, Azərbaycanın ali təhsil müəssisələrində bolqar dilinin tədrisi və bolqar mədəniyyətinə göstərilən diqqətə görə Prezident İlham Əliyevə təşəkkürünü bildirib.

Söhbət zamanı bir neçə gün əvvəl Azərbaycan Respublikası Hökuməti ilə Bolqarıstan Respublikası Hökuməti və Veliko Tırnovo Bələdiyyəsi arasında Bolqarıstanın Veliko Tırnovo şəhərində "Şuşa" parkının salınması və yenidən qurulması üzrə əməkdaşlıq haqqında Sazişin imzalanması məmnunluqla qeyd olunub. Ölkələrimiz arasında enerji, elektrik enerjisinin ixracı, kənd təsərrüfatı, turizm və digər sahələrdə, həmçinin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq məsələlərinə toxunulub.

Eləcə də, Bolqarıstanın Azərbaycan-Avropa İttifaqı əlaqələrinin inkişafına verdiyi dəstək yüksək qiymətləndirilib. Bu ilin mayında Azərbaycanın Dünya Şəhərsalma Forumuna ev sahibliyi edəcəyi vurğulanaraq, Bolqarıstanın bu tədbirdə yüksək səviyyədə təmsil olunacağı bildirilib.

**Aİ ölkəmizlə enerji əməkdaşlığını yüksək dəyərləndirir**

Prezident İlham Əliyevin Münxendə keçirdiyi növbəti görüş isə Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti Kaya Kallasla olub. Söhbət zamanı Kaya Kallasın ötən il ölkəmizə səfəri və dövlətimizin başçısı ilə görüşü məmnunluqla xatırlanıb. Avropa İttifaqının Azərbaycanla münasibətləri daha da inkişaf etdirməkdə maraqlı olduğu bildirilib.

Görüşdə Avropa İttifaqı ilə ölkəmiz arasında enerji sahəsində uğurlu əməkdaşlığın həyata keçirildiyi vurğulanaraq, bu xüsusda Azərbaycanın Avropanın enerji təhlükəsizliyinin təmin olunmasına verdiyi mühüm töhfələrə toxunulub. Eləcə də, ölkəmizlə Avropa İttifaqı arasında enerji sahəsi ilə yanaşı, nəqliyyat sahəsində də əməkdaşlıq üçün geniş imkanların olduğu vurğulanıb.

Söhbət zamanı Azərbaycan-Avropa İttifaqı əməkdaşlığının perspektivləri, Cənubi Qafqaz regionunda davamlı sülhün və sabitliyin təmin olunması, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlərə dair fikir mübadiləsi aparılıb.

**Zelenski Azərbaycan Prezidentinə minnətdarlıq edib**

Prezident İlham Əliyevin Münxen Təhlükəsizlik Konfransı çərçivəsində Ukrayna Prezidenti Volodimir Zelenski ilə də görüşü olub. Söhbət zamanı ölkələrimiz arasında əməkdaşlığın müxtəlif istiqamətlərdə, o cümlədən enerji sahəsində genişləndirilməsi ilə bağlı məsələlər müzakirə edilib. Volodimir Zelenski Azərbaycanın Ukraynaya göstərdiyi humanitar dəstəyə, xüsusilə ukraynalı uşaqlara olan diqqət və qayğıya görə minnətdarlığını ifadə edib. Azərbaycan və Ukrayna prezidentləri ölkələrimiz arasında ikitərəfli münasibətlərin perspektivləri ilə bağlı fikir mübadiləsi aparıblar.

Bundan başqa, Azərbaycan Prezidenti İlham Əliyev "The Goldman Sachs Group Inc." şirkətinin qlobal məsələlər üzrə prezidenti Cared Kohen ilə görüşüb. Görüşdə ölkəmizlə şirkət arasında 2010-cu ildən bəri həyata keçirilən uğurlu tərəfdaşlığa toxunulub, əlaqələrin mövcud vəziyyəti müzakirə olunub. Azərbaycan iqtisadiyyatının müxtəlif sahələri üzrə ölkəmizlə "The Goldman Sachs Group Inc." arasında əməkdaşlığın perspektivlərinə dair məsələlər ətrafında fikir mübadiləsi aparılıb. Azərbaycan Respublikası Dövlət Neft Fondu ilə "The Goldman Sachs Group Inc." şirkətinin uğurlu tərəfdaşlığının əhəmiyyəti vurğulanıb.

Qeyd edək ki, mənzil-qərargahı ABŞ-ın Nyu-York şəhərində yerləşən "The Goldman Sachs Group Inc." 1869-cu ildə təsis edilib. Şirkət investisiya və istehlak bankçılığı, qiymətli kağızlar, aktivlərin idarə edilməsi sahələrində çalışan dünyanın aparıcı qlobal maliyyə institutlarından biridir və hazırda 40-dan çox ölkədə fəaliyyət göstərir. O, müxtəlif siniflər üzrə 2,8 trilyon ABŞ dolları dəyərində aktivləri idarə edir.

# Avrasiyada əməkdaşlıq üçün güclü siyasi zəmanət...







## İlham Əliyev: Azərbaycan Bakıdan Aralıq dənizinə neft kəməri, Bakıdan İtaliyaya qaz kəməri kimi transmilli layihələrə start verən və onlara rəhbərlik etməyi bacaran bir ölkədir

Prezident İlham Əliyevin 13-15 fevralda Münxen Təhlükəsizlik Konfransı çərçivəsində keçirdiyi görüşlər, səsləndirdiyi fikirlər Cənubi Qafqazın yeni inkişaf tarixinin təcəssümü kimi yadda qaldı. Xüsusilə, fevralın 14-də Münxen Təhlükəsizlik Konfransı çərçivəsində "Açıq dəhliz siyasəti? Trans-Xəzər əməkdaşlığının dərinləşdirilməsi" mövzusunda panel müzakirələr zamanı dövlət başçımız vacib məsələlərə aydınlıq gətirdi. ATƏT-in keçmiş Baş katibi Helqa Mariya Şmidin moderatorluğu ilə baş tutan panel müzakirəsində Prezident İlham Əliyev ilə yanaşı Avropa Komissiyasının Genişlənmə üzrə komissarı Marta Kos, Çin və Qloballaşma Mərkəzinin təsisçisi və prezidenti, Çin Xalq Respublikasının keçmiş dövlət müşaviri Vanq Huiyao da iştirak ediblər.

**Hədəf 500 min nəqliyyat vahididir...**

Azərbaycanın son illərdə Cənubi Qafqazda formalaşdırdığı təhlükəsizlik arxitekturası Orta Dəhlizi qlobal diqqət mərkəzinə salıb. Bu marşrut beynəlxalq ticarət imkanlarını artırmaqla yanaşı, həm də yeni perspektiv vəd edir. Panel iclasında moderatorun sualını cavablayan Prezident İlham Əliyev bildirib ki, sonuncu dəfə panel sessiyasında görüşdükdən sonra regionumuzda dəhlizlər və bağlantılar baxımından xeyli dəyişikliklər olub. Həmin dövrdə Azərbaycan fiziki infrastruktura, o cümlədən dəniz limanları, dəmir yolları, magistral və hava yolları ilə yüklərin daşınmasına böyük sərmayələr yatırıb. Birmənalı olaraq, regional daşımalar qovşağına çevrilmək üçün sizin qonşularınızla yaxşı münasibətləriniz olmalıdır və Azərbaycanda həm Qərb, həm də Şərq istiqamətlərində belədir: "Avropa ilə Asiya arasında yerləşən Azərbaycanın coğrafi mövqeyi üstünlükdür, lakin fiziki infrastruktursuz onun mənası çox deyil. Ötən il biz Azərbaycan vasitəsilə daşınan yüklərin 100 mindən artıq nəqliyyat vahidi üzrə rekord göstərici əldə etdik. Bir neçə ildən sonra həmin göstərici 200 min və hətta 300 min nəqliyyat vahidinə çatacaq. Hədəf 500 min nəqliyyat vahididir. Biz bu məqsədlə artıq dəniz limanımızın genişləndirilməsinə başlamışıq və hazırda orada sərmayələr yatırılır".

Regional bağlantı layihələrinə gəldikdə isə, söhbət təkcə dəmir yollarından getmir, həmçinin fiber-optik kabellər də nəzərdə tutulur: "Hazırda Xəzər dənizinin dibi ilə fiber-optik kabelin çəkilməsi üzərində Mərkəzi Asiyadakı tərəfdaşlarımızla sıx işləyirik. O, bu il hazır olmalıdır və Ermənistanla sülh quruldudqan sonra yeni imkanlar əldə olunub. Azərbaycandan Ermənistana və oradan Avropa istiqamətində gedən dəhlizin yük həcmi baxımından böyük potensialı var. Azərbaycan hazırda öz ərazisində dəmir yolunun çəkilməsinə sərmayə yatırır. Azərbaycan ərazisində - ölkəmizin əsas hissəsi və eksklav Naxçıvanda çəkiləcək və bərpa olunacaq dəmir yolunun tam uzunluğu 600 kilometrdir. Ermənistanda həmin yolun uzunluğu 40 kilometrdən bir az çoxdur. Çəkilən kimi biz Azərbaycan vasitəsilə Orta Dəhlizin iki hissəsinə malik olacağıq. Bu, Qərb ilə Şərq üçün faydalı olacaq və təbii ki, Cənubi Qafqazda yerləşən ölkələrə də fayda verəcək".

**Sülh həqiqi sülh prosesi getdikdə əldə oluna bilər...**

Ötən ilin avqustunda Vaşinqtonda imzalanan Birgə Bəyannamə Orta Dəhlizin daha effektiv işləməsi üçün olduqca münbit şərait yaratdı - TRIPP layihəsi geniş Trans-Xəzər əməkdaşlıq çərçivəsində vacib bir yer tutacaq. Bu həm də sülh və qarşılıqlı etimad mühitinin yaranmasına da böyük töhfə verəcək. Panel iclasında bununla bağlı sualı cavablayan Prezident İlham Əliyev bu il sülh müqaviləsini imzalayacağımıza ümid etdiyini bildirib. Dövlət başçısı vurğulayıb ki, Ağ Evdə ABŞ Prezidentinin iştirakı ilə paraflanması, Ermənistanın Baş naziri və öz tərəfimdən, Prezident Trampın da şahid qismində bəyannamənin imzalanması söyləməyə əsas verir ki, sülh artıq əldə olunub: "Biz Ermənistanla fiziki əməkdaşlığa da başlamışıq. Azərbaycandan keçən yüklərin daşınmasında bütün məhdudiyyətləri götürmüşük. Biz gürcü dostlarımıza minnətdarıq ki, onlar Azərbaycana daxil olan yüklərin Gürcüstan vasitəsilə çox mühüm tranzitini təmin edirlər. Biz, həmçinin Ermənistan üçün çox mühüm olan neft məhsullarının təchizatına başlamışıq. Beləliklə, qarşılıqlı ticarət əslində başlayıb. Yeni imzalanacaq rəsmi sülh sazişi baxımından, hər şey Azərbaycana qarşı üç onillik ərzində mövcud olan ərazi iddiasının Ermənistan Konstitusiyasından çıxarılmasını nəzərdə tutan dəyişiklikdən asılıdır. O, baş verdikdən sonra növbəti gün sülh sazişi rəsmən imzalanacaq. Bununla belə, yeni bağlantıların yaradılmasında mühüm rol oynayacaq "Trampın Beynəlxalq Sülh və Rifah Marşrutu" tamamilə yeni vəziyyət yaradacaq. Çünki qeyd etdiyim kimi, Çindən başlayan daşımalar Mərkəzi Asiya, Trans-Xəzər regionu, Azərbaycan, Ermənistan, eksklav Naxçıvan, Türkiyə və sonra Avropanı əhatə edəcək. Bu, bütün ölkələr üçün faydalı olacaq. Marşrut boyunca bütün ölkələr həm siyasi, həm iqtisadi baxımdan daha sıx inteqrasiya olunacaq və həmin addım Azərbaycan ilə Ermənistan arasında uzunmüddətli və əbədi sülhə növbəti töhfə olacaq. Çünki sülh həqiqi sülh prosesi getdikdə əldə oluna bilər. Sənədin imzalanması vacibdir. O, bünövrədir. Lakin sonra gördüyünüz işlərin də əhəmiyyəti heç də az deyil", - deyə dövlət başçısı vurğulayıb.

**Biz bunu Türkiyə ilə birlikdə özümüz etdik...**

Ümumiyyətlə, Prezident Donald Trampın ABŞ-da yenidən hakimiyyətə qayıdışı Vaşinqtonun Cənubi Qafqaza baxışında mühüm yeniliklər və dəyişikliklərlə yadda qaldı. TRIPP layihəsi Azərbaycan-ABŞ əməkdaşlığında xüsusi yer tutur. Ölkəmizin başçısı panel iclasında bildirib ki, TRIPP-in Prezident Trampın adını daşıması faktı o deməkdir ki, bu dəhliz bu administrasiya üçün və bəlkə də bu administrasiyanın müddətindən sonra da vacib olacaq. Adın verilməsi onun həyata keçiriləcəyi deməkdir və ad təsdiqləndikdən sonra biz tamamilə əminik ki, Birləşmiş Ştatlar bunun bir hissəsi olacaq: "Hazırda əlimizdə olan məlumata görə, ABŞ ilə Ermənistan fiziki tikinti və investisiya hüququna malik olacaq şirkətin fəaliyyət parametrlərini müzakirə edirlər. Bu, artıq açıq mənbələrdən götürülüb. Biz bilirik ki, şirkətin 76 faizi ilk 49 il ərzində ABŞ-a, 24 faizi isə Ermənistana məxsus olacaq, sonra isə daha 49 il olacaq. Başqa sözlə, bu format bir əsr ərzində işlək olacaq".

Dövlət başçısı qeyd edib ki, Amerika administrasiyasından regionumuzdakı bağlantı layihələrinə fərqli yanaşmalar olub və yalnız Prezident Tramp hakimiyyətə gələndə biz böyük bir maraq görməyə başladıq. Başqa sözlə, region ölkələri, Azərbaycan, Gürcüstan, Xəzərin o tayında Mərkəzi Asiyadakı qonşularımız tərəfindən görülən bütün işlər Amerikanın heç bir praktiki iştirakı olmadan həyata keçirilib: "Beləliklə, biz bunu Türkiyə ilə birlikdə özümüz etdik. Biz Azərbaycan, Gürcüstan, Türkiyə ərazisindən keçən neft kəmərini, Avropaya uzanan qaz kəmərini, Bakı-Tbilisi-Qars dəmir yolunu qeyd edə bilərik ki, bunların hamısı Amerikanın heç bir praktiki iştirakı olmadan həyata keçirilib. Beləliklə, biz bunu özümüz etdik. Bu gün Prezident Tramp administrasiyasının diqqətini cəmləşdirdiyi böyük bir resursa sahib olduğumuz halda, əlbəttə ki, bu genişmiqyaslı layihələrin həyata keçirilməsi potensialı daha böyükdür".

Prezident İlham Əliyev deyib ki, biz region ölkələri haqqında danışdıq və Xəzər dənizinin o tayında Mərkəzi Asiyadakı qonşularımızı unutmamalıyıq. Çünki onlar olmadan Çindən Avropaya heç bir yük daşımaq mümkün olmayacaq: "Beləliklə, Çin, Mərkəzi Asiya, Xəzər dənizi, Azərbaycan, Gürcüstan, Ermənistan, Türkiyə, Avropa - coğrafiya budur və Azərbaycan artıq Mərkəzi Asiya ölkələri ilə çox fəal qarşılıqlı əlaqədədir. Ötən ilin noyabrında Azərbaycan rəsmi olaraq Mərkəzi Asiya beşliyinə daxil edildi, Mərkəzi Asiya beşliyi altılığa çevrildi. Bu, misli görünməmiş bir hadisədir, çünki biz Cənubi Qafqaz ölkəsiyik, amma Mərkəzi Asiya Məşvərət Şurasının üzvüyük", - deyən dövlət başçısı vurğulayıb ki, biz bağlantı sahəsində çox işlər görürük, Mərkəzi Asiya ölkələri ilə Çin arasında da bağlantı sahəsində çox işlər görülür. Mövcud yollarla yanaşı, Çin tərəfindən tikilməkdə olan və maliyyələşdirilən başqa bir yol da var - Xəzərə aparan daha bir yol. Çindən Qazaxıstan vasitəsilə Xəzərə uzanan mövcud yoldan əlavə olaraq: "Çin hazırda Çin-Qırğızıstan-Özbəkistan-Türkmənistan-Xəzər yolunu maliyyələşdirir. Yenə də yol Xəzər dənizinə gedir. Bu o deməkdir ki, o, Azərbaycana və sonra Cənubi Qafqazdan keçərək Avropaya çatacaq. Beləliklə, xeyli geosiyasət, xeyli beynəlxalq münasibətlər, xeyli diplomatiya həyata keçirilir. Azərbaycan bir çox ölkələrin marşrutu boyunca keçən, hamısı ilə yaxşı münasibətlər quraraq Bakıdan Aralıq dənizinə neft kəməri, Bakıdan İtaliyaya qaz kəməri kimi transmilli layihələrə start verən və onlara rəhbərlik etməyi bacaran bir ölkədir. Beləliklə, bu, Avrasiyanın çox geniş coğrafiyasında əməkdaşlıq üçün daha bir çox güclü siyasi zəmanət olacaq".

**Erməni nümayəndəyə cavab: Prezident Bayden qayıdanda sizin "Sülh yolu kəsişməsi" layihəsini yenidən başladar...**

Təbii ki, Cənubi Qafqazın prioritet gündəmi sülh prosesidir - sülh olmadan hər hansı bir iqtisadi layihədən və ya inkişafdan söhbət gedə bilməz. Azərbaycanın isə sülhlə bağlı fikirləri, yanaşmaları açıqdır. Prezident İlham Əliyev panel iclasında erməni nümayəndənin sualını cavablandıraraq bildirib ki, Azərbaycana birbaşa ərazi iddiasını ehtiva edən Ermənistanın müstəqillik bəyannaməsi Ermənistan Konstitusiyasının bir hissəsidir və bəli, Konstitusiyanın preambula hissəsindədir: "Gəlin indi, tədbiri bitirməzdən əvvəl Vikipediyadan yoxlayaq. Konstitusiya Məhkəməsinin heç bir qərarı Konstitusiyadan üstün deyil. Mən hüquqşünas deyiləm, lakin hətta mən də bunu bilirəm. Buna görə də Ermənistan Konstitusiyasından müstəqillik bəyannaməsinin çıxarılması sülh müqaviləsinin imzalanması üçün yeganə qalan ilkin şərtdir. Düşünürəm ki, Ermənistan və Azərbaycan rəhbərlikləri arasında hansı addımların atılması və bunların hansı ardıcıllıqla edilməsi barədə xeyli anlaşma var".

Maraqlıdır ki, sülh prosesinin olduqca vacib məqamında bəzi ermənilər hələ də prosesə xələl gətirmək niyyətindədir. Məsələn, fərqli məcralardan bəhs açmaq, hətta "Bayden dövrü nostaljisini" xatırlamaq kimi ... Prezident İlham Əliyev bunun da cavabını tutarlı şəkildə verib: "Sülh yolu kəsişməsi"nə gəlincə, bilirsiniz, Prezident Tramp yenidən hakimiyyətə qayıdanda o, TRIPP layihəsinə start verdi. Odur ki, Prezident Bayden qayıdanda sizin "Sülh yolu kəsişməsi" layihəsini yenidən başladar".

**Bu, Azərbaycanın diplomatik nümayəndəliyinə qəsdən edilmiş bir hücum idi...**

Qlobal gündəmin əsas problemlərindən olan Rusiya-Ukrayna müharibəsi Azərbaycana da kifayət qədər ziyan vurub. Ukraynada yerləşən ölkəmizə məxsus enerji obyektləri, hətta səfirliyimiz belə dəfələrlə Rusiyanın hücumuna məruz qalıb. Dövlət başçısı bildirib ki, bu məsələ Xarici İşlər nazirlikləri və Prezident administrasiyaları səviyyəsində rəsmilərimiz arasında çoxsaylı təmaslar zamanı dəfələrlə qaldırılıb. "Ukraynada təkcə Azərbaycanın enerji infrastrukturuna hücumlar olmayıb. Eyni zamanda, Azərbaycanın Ukraynadakı səfirliyi 3 dəfə hücuma məruz qalıb. Birinci hücumdan sonra biz düşündük ki, bu, təsadüfən baş verib və rusiyalı həmkarlarımıza Azərbaycanın diplomatik nümayəndəliklərinin, o cümlədən konsulluq idarəsinin, mədəniyyət mərkəzlərinin və səfirliyimizin bütün koordinatlarını təqdim etdik. Bütün bunlara baxmayaraq, iki əlavə hücum oldu. Beləliklə, bu, Azərbaycanın diplomatik nümayəndəliyinə qəsdən edilmiş bir hücum idi və biz xüsusi bəyanat yaydıq, Rusiya səfiri dəvət olundu və ona diplomatik nota verildi. Biz yalnız diplomatik yolla hərəkət edirik. Bundan başqa heç nə edə bilmərik. Lakin, əlbəttə ki, bu hərəkətlər Azərbaycana qarşı dostyana hərəkət hesab edilmir. Mən sizin sualınızı başa düşürəm və sadəcə sizə məlumat vermək istəyirəm ki, Azərbaycan hökuməti tərəfindən bütün zəruri diplomatik addımlar atılıb", - deyə Prezident İlham Əliyev bildirib.

***P.İSMAYILOV***





# Artıq sülhə nail olunub...

## Prezident İlham Əliyev Münxendə "France 24" telekanalına müsahibə verib

XXI əsrin ilk dörddə birini arxada qoyduğumuz mürəkkəb və dinamik bir mərhələdə Azərbaycan yalnız milli inkişaf trayektoriyasını yeniləməklə kifayətlənmir, eyni zamanda regionun geosiyasi və geoiqtisadi mənzərəsini də əsaslı şəkildə dəyişdirən aktora çevrilir. Qloballaşmanın yeni mərhələsi, beynəlxalq münasibətlər sistemində güc balansının yenidən qurulması və təhlükəsizlik arxitekturasının transformasiyası fonunda ölkəmiz təşəbbüskar, məsuliyyətli və uzaqgörən siyasəti ilə seçilir. Bakının son 6 ildə formalaşdırdığı yeni situasiyadan yola çıxaraq bildirmək olar ki:

- Müstəqil və çoxşaxəli xarici siyasət kursu sayəsində Azərbaycan Cənubi Qafqazda sabitliyin və əməkdaşlığın əsas dayaqlarından birinə çevrilib. Xüsusilə post-münaqişə mərhələsində irəli sürülən sülh təşəbbüsləri regionda yeni təhlükəsizlik modelinin formalaşmasına təkan verir;
- Azərbaycan regionu yeni qlobal nizamın diqqət mərkəzinə gətirən strateji təşəbbüslərlə çıxış edir. Enerji təhlükəsizliyi, nəqliyyat-kommunikasiya xətləri, rəqəmsal transformasiya və yaşıl enerji gündəliyi ölkəmizi beynəlxalq tərəfdaşlıq şəbəkələrinin vacib halqasına çevirir;
- Bakı Cənubi Qafqaza bütövlükdə yeni münasibətlər sistemində daha fərqli və daha yüksək status qazandırır. Region artıq yalnız geosiyasi rəqabət meydanı deyil, əməkdaşlıq, dialoq və qarşılıqlı fayda platforması kimi təqdim olunur. Azərbaycanın təşəbbüsləri bölgədə qarşılıqlı əməkdaşlıq modelini dərinləşdirərək iqtisadi inteqrasiyanı və humanitar əlaqələri gücləndirir;
- Nəhayət, Şərq-Qərb və Şimal-Cənub nəqliyyat-logistika marşrutlarının inkişafı ölkəmizi Avrasiya məkanında əsas tranzit mərkəzlərindən birinə çevirir. Bu isə həm regional sabitliyə, həm də qlobal ticarət dövriyyəsinin şaxələndirilməsinə mühüm töhfə verir.

Beləliklə, yeni nizam qaydaları, yeni qlobal inkişaf mərhələsi məhz Azərbaycanın iradəsi və təşəbbüsü əsasında irəli sürülən təkliflər, layihələr, bir sözlə, strateji yol modeli əsasında formalaşır.

**"Münaqişə bitib və biz daimi olacağına ümid etdiyimiz sülh dövrünə qədəm qoymuşuq"**

Təbii ki, inkişaf, tərəqqi, yeni əməkdaşlıq mühiti kompleks şəkildə sabitlikdən qaynaqlanan nəsnələrdir. Ötən ilin avqustunda Vaşinqtonda keçirilən Sülh Zirvəsi, eləcə də imzalanan sənədlər və razılaşdırılan məqamlar yeni bir situasiya yaradıb. Azərbaycanın sülh iradəsindən qaynaqlanan bu görüş ən yaxın zamanda sülhün imzalanmasına vəsilə ola bilər. Prezident İlham Əliyev fevralın 13-də Münxendə "France 24" telekanalına müsahibəsində bildirib ki, tam sülhün və tam normallaşmanın tezliklə olacağı düşüncəsindədir. Çünki 8 avqustda imzalanan sənədin Ağ Evdə Amerika Birləşmiş Ştatları Prezidentinin iştirakı ilə imzalanması o deməkdir ki, münaqişə bitib və biz daimi olacağına ümid etdiyimiz sülh dövrünə qədəm qoymuşuq: "Yeri gəlmişkən, ABŞ Prezidenti Birgə Bəyannaməni də şahid qismində imzalamışdır. O vaxtdan bəri altı aydan çox müddət keçib və bizim Ermənistanla sərhəddə vəziyyət çox sakitdir. Artıq atəş açılmır, qurban vermirik, yaralananlar olmur. Azərbaycan birtərəfli qaydada Ermənistana malların tranziti üzərində olan məhdudiyyətləri aradan qaldırdı. Biz, həmçinin Ermənistana vacib neft məhsullarını təchiz etməyə başladıq və bununla da bizim ticari münasibətlərimiz başladı. Beləliklə, görə bilərik ki, artıq sülhə nail olunub. Yekun sülh sazişini imzalamaq üçün müəyyən formal xarakter daşıyan məsələlər var. Lakin qeyd etdiyiniz bəyannamə ilə yanaşı, hər iki ölkənin xarici işlər naziri Vaşinqtonda sülh sazişinin mətnini də parafladılar. Beləliklə, mənim üçün bu, artıq bitmiş işdir. Hesab edirəm ki, Ermənistanın Baş naziri də mənimlə eyni fikirdədir. Biz elə indi sülh şəraitində yaşamağı öyrənirik və bu, çox yaxşı bir hissdir".

**"Ermənistanın Konstitusiyasında müvafiq dəyişikliklər edilməsə, sülh sazişi imzalanmayacaq"**

Sülhün bir addımlığındayıq - lakin, tam şəkildə bu sənədin imzalanması üçün Ermənistanın da ortaya iradə qoyması vacibdir. Xüsusilə, Ermənistan Konstitusiyasında Azərbaycan ərazilərinə qarşı iddiaların qalması sülhün legitimliyinə kölgə salan amillərdəndir. Əgər tərəflər bir-birinin ərazi bütövlüyünü tanıyırsa, bu prinsip əsas qanunvericilikdə də öz əksini tapmalıdır. Əks halda, gələcəkdə hüquqi ziddiyyətlər və siyasi manipulyasiyalar üçün zəmin qala bilər. Konstitusiyada dəyişikliklərin edilməsi, ərazi iddialarının aradan qaldırılması və qarşılıqlı tanınma prinsipinin təsbit olunması bu prosesin əsas şərtlərindəndir. Bu addımlar atılarsa, sülh sənədi formal deyil, real təminata çevriləcək. Əks halda, imzalanacaq hər hansı razılaşma gələcəkdə yenidən sual altına düşə bilər. Sülh isə yalnız iki ölkə üçün deyil, bütövlükdə region üçün həyati əhəmiyyət daşıyır. Dövlət başçısı müsahibəsində bildirib ki, Ermənistanın Konstitusiyasında müvafiq dəyişikliklər edilməsə sülh sazişi imzalanmayacaq: "Mən normallaşmanı rəsmi sülh sazişindən ayırardım, çünki normallaşma artıq baş verir. Qeyd etdiyim kimi, müsbət məcrada inkişaf edən bütün hadisələr bunu göstərir. Lakin Ermənistanın Konstitusiyasında, - hansı ki, Qarabağın işğal altında olduğu dövrdə, uzun müddət bundan öncə qəbul olunmuşdur, - Ermənistanın İstiqlaliyyət Bəyannaməsinə istinad var. Orada da "qondarma Dağlıq Qarabağ və Ermənistan birləşməlidir" məzmunlu paraqraf var. Beləliklə, bu, Azərbaycana ərazi iddiasıdır. İkinci Qarabağ müharibəsinin bitməsindən sonra uzun illər ərzində bizim mövqeyimiz çox aydın olub. O dəyişilməlidir. Mən bildiyimə görə, Ermənistan referendum keçirməyi planlaşdırır. Bu olan kimi sülh sazişinin rəsmi imzalanmasına heç bir maneə qalmayacaq. Lakin yenə də vurğulamaq istəyirəm ki, Azərbaycan üçün sülh əldə olunub. Normallaşma prosesi uğurla irəliləyir və ümid edirəm ki, formal xarakter daşıyan bu hüquqi məsələlər tamamlanan kimi bizdə rəsmən sülh olacaq".

Yekun sülh üçün bu amil olduqca vacib bir şərtdir. Ermənistan bu addımı nə qədər tez atsa, sülh müqaviləsi də o qədər tez imzalanacaq. Hətta fransalı jurnalistin sülhün bu il imzalanmasının mümkünlüyü ilə bağlı suala Prezident İlham Əliyev "Sözsüz ki", deyə cavab verib.

**"Biz dünyanın ən güclü ölkəsinin rəsmi strateji tərəfdaşı olduq"**

Azərbaycan hər zaman bəyan edib ki, bütün dövlətlərlə milli maraqlar çərçivəsində, bərabərhüquqlu və konstruktiv əsaslara söykənən əməkdaşlıqda maraqlıdır. Bu nöqteyi-nəzərdən Bakı-Vaşinqton əlaqələri son dövrlərdə daha çox diqqəti cəlb edir - münasibətlər son 1 ildə keyfiyyətcə yeni mərhələyə qədəm qoyub. Fevralın 10-da ABŞ-ın vitse-prezidenti Cey. Di. Vensin Bakıya səfəri çərçivəsində Azərbaycan ilə ABŞ arasında imzalanan Strateji Tərəfdaşlıq haqqında Xartiyada vurğulanır ki, regional bağlantılar, o cümlədən enerji, ticarət və tranzit; iqtisadi sərmayələr, o cümlədən süni intellekt (ai) və rəqəmsal infrastruktur; təhlükəsizlik əməkdaşlığı; institusional çərçivə və tətbiq kimi sahələr üzrə əməkdaşlıq mühiti genişləndirilir. Xüsusilə, Zəngəzur dəhlizinin reallaşması istiqamətində atılan addımlar gələcək üçün mühüm vədlər verir. Prezident İlham Əliyev müsahibəsində deyib ki, imzalanan sənədlərin, əldə edilən razılaşmaların reallaşacağına şübhə yoxdur. Bunun səbəblərindən biri də odur ki, Amerika Birləşmiş Ştatları bu prosesdə çox vacib rol oynayır. Azərbaycanın iki ərazisini Ermənistan ərazisindən birləşdirəcək və hətta Avropa qitəsinə qədər uzanacaq marşrut Prezident Trampın adını daşıyır: "Bu, Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutudur. Düşünürəm ki, ABŞ Prezidentinin şəxsən öz üzərinə götürdüyü bu öhdəlik və ABŞ hökumətinin gündəliyi TRIPP-in inşa olunacağını göstərir. Bu, böyük məsafə deyil, cəmi 40 kilometrdən çoxdur. Yeri gəlmişkən, demək istərdim ki, hazırda Azərbaycanın paytaxtdan Ermənistan sərhədinədək inşa etməkdə olduğu dəmir yolu təxminən 400 kilometrdir. Üstəlik, demək olar ki, 200 kilometrlik hissə bizim Naxçıvan eksklavında bərpa olunacaq. Beləliklə, bizim adlandırdığımız kimi, Zəngəzur dəhlizinin Ermənistan seqmenti çox qısadır. Əminəm ki, bu, həyata keçiriləcək".

Dövlət başçısı müsahibəsində vitse-prezident Vensin səfərinə də toxunaraq bildirib ki, bu, çox mühüm bir səfər idi. "Birləşmiş Ştatların Vitse-prezidentinin səfəri özlüyündə istənilən ölkə üçün əhəmiyyətlidir. Hazırkı vəziyyətdə bu, Birləşmiş Ştatlar və Azərbaycan hökumətləri arasında Strateji Tərəfdaşlıq haqqında Xartiyanın imzalanması ilə əlamətdar oldu. Beləliklə, biz dünyanın ən güclü ölkəsinin rəsmi strateji tərəfdaşı olduq və bunu ölkəmiz üçün böyük uğur hesab edirik. Bu Strateji Xartiya mətbuatda dərc olundu, o, müxtəlif bölmələrdən ibarətdir. Onlardan biri müdafiə məhsullarının satışı ilə bağlıdır, amma təkcə bu deyil. Buraya enerji, bağlantı, süni intellekt, investisiya və ticarət daxildir, həmçinin Azərbaycana silah tədarükü ilə bağlı bütün məhdudiyyətlər aradan qaldırılıb", - deyə Prezident İlham Əliyev vurğulayıb.

**"Onların törətdiyi cinayət İkinci Dünya müharibəsi zamanı nasistlərin etdiklərindən daha pis idi"**

2020-ci ildə Vətən müharibəsi və daha sonra həyata keçirilən antiterror tədbirləri Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin təmin olunması ilə yanaşı, həm də illərdir gizlənən cinayətkarların məsuliyyətə cəlb olunması üçün real hüquqi zəmin yaratdı. Azərbaycan dövləti bu məsələdə emosional yox, hüquqi yanaşma sərgilədi. Cinayət törətmiş şəxslər saxlanıldı, istintaqa cəlb olundu və məhkəmə qarşısında cavab verdilər. Təəssüfləndirici haldır ki, bəzən qlobal dünya bəzi məsələlər yanaşmada selektiv mövqe nümayiş etdirir - zaman-zaman həmin cinayətkarların azad edilməsi ilə bağlı ölkəmizə qarşı edilən təzyiqlər də buna misaldır. Amma Bakı öz qətiyyətindən dönmədi - Prezident İlham Əliyevin prinsipial mövqeyi ondan ibarət idi ki, insanlıq əleyhinə cinayət törətmiş şəxslər mütləq hüquq qarşısında cavab verməlidir. Prezident İlham Əliyev müsahibəsində bildirib ki, ABŞ vitse-prezidenti də bu məsələyə toxunub: "Vitse-prezidentlə bir neçə saat davam edən görüş zamanı digər məsələlərlə yanaşı, bu məsələ də onun tərəfindən qaldırıldı və mən bu məsələ ilə bağlı Azərbaycanın mövqeyini ifadə etdim, vəssalam. Biz, əsasən, ikitərəfli əlaqələri, regional inkişafı, TRIPP və Ermənistanla rəsmi sülh perspektivlərini müzakirə etdik. Qeyd etdiyiniz bu insanlara gəldikdə isə, onlar bizim ərazimizdə, Ermənistan da daxil olmaqla bütün beynəlxalq ictimaiyyət tərəfindən tanınan suveren Azərbaycan dövlətinin ərazisində qanunsuz fəaliyyət göstərən separatçı rejimin lideridir. Bu insanlar uzun illər ərzində azərbaycanlılara və Azərbaycana qarşı törədilən bütün müharibə cinayətlərinin təşkilatçıları olublar və məsuliyyətə cəlb ediliblər. Onlar bizim həyata keçirdiyimiz hərbi əməliyyat nəticəsində Qarabağda saxlanılıb məsuliyyətə cəlb olunublar. Onlar vəkillərlə təmin ediliblər. Məhkəmə prosesi tamamilə şəffaf keçib. Onların cinayətləri şahid ifadələri, çoxsaylı ifadələrlə sübuta yetirilib, hər hansı qanun pozuntusundan söhbət gedə bilməz".

Ötən məhkəmə prosesi dövründə həmin cinayətkarların azadlığını tələb edən dairələr isə əslində beynəlxalq hüququn əsas prinsiplərinə qarşı gedirdilər. Maraqlıdır, erməni cinayətkarların müdafiəsinə qalxanların öz ölkələrində cinayət törətmiş şəxslərə münasibəti necədir? Xalqımıza qarşı cinayət törədənlərin hüquq qarşısında cavab verməsi tarixi ədalətin bərpasıdır. Prezident İlham Əliyev bildirib ki, bu insanlar bəşəriyyətə qarşı ağır cinayətlər törədiblər. İkinci Dünya müharibəsindən sonra Nürnberq məhkəmələrində ölüm hökmünə məhkum edilmiş bütün o nasist liderlərini təsəvvürünüzə gətirin ki, iki aydan sonra kimsə gəlib deyəcək, xahiş edirəm, onları azad edin. Bu, bizim üçün eynidir. Hətta daha da pisdir, daha da pisdir. Onların törətdiyi cinayət İkinci Dünya müharibəsi zamanı nasistlərin etdiklərindən daha pis idi".

**"Ermənistan hökuməti deportasiya edilmiş yüz minlərlə azərbaycanlının geri qayıtması üçün heç vaxt heç bir təklif irəli sürməyib"**

Bəzən qəsdən məsələləri qarışdırırlar - cinayətkarlara qarşı münasibət ilə Azərbaycanın Qarabağ bölgəsində yaşayan ermənilərə qarşı münasibət və yanaşma tam fərqlidir. Dövlət başçısı bildirib ki, Bizim bu məsələ ilə bağlı mövqeyimiz çox aydın olub. "Bizim Qarabağda yaşayan bütün ermənilərə vətəndaşlıq və ya iş icazəsi üçün müraciət etməyi təklif etdiyimiz dəfələrlə səsləndirilib, o cümlədən veb-saytda dərc olunub. Qarabağ ermənilərinin nümayəndələri ilə bir neçə dəfə görüşlərimiz oldu, lakin onlar Ermənistana getmək seçimini üstün tutdular. Bugünkü Ermənistan ərazisindən deportasiya edilmiş və etnik təmizləməyə məruz qalmış yüz minlərlə azərbaycanlımız var, lakin Ermənistan hökuməti onların geri qayıtması üçün heç vaxt heç bir təklif irəli sürməyib. Düşünürəm ki, bu məsələyə qarşılıqlı nöqteyi-nəzərindən yanaşmalıyıq. Qayıdış hüququ universal bir hüquqdur və əlbəttə ki, bizə belə bir müraciət olarsa, Azərbaycan bu hüquqa mütləq əməl edəcək. Lakin, eyni zamanda, 30 il Ermənistanla müharibə şəraitində olduğumuzu və 30 il ərzində onların ərazimizi işğal altında saxladığını nəzərə alsaq, Qərbi azərbaycanlılar adlandırdığımız yüz minlərlə azərbaycanlıya qarşı da eyni münasibəti gözləyirik ki, bugünkü Ermənistana qayıda bilsinlər", - deyə ölkə başçısı vurğulayıb.

**"Bizə hər hansı ölkə, o cümlədən Fransa ilə heç bir problem lazım deyil"**

Artıq Ermənistan ilə Azərbaycan arasında müharibə və münaqişə dövrü bitib - uzun illər boyu, xüsusilə də müharibə dövründə beynəlxalq hüquqa qarşı zidd mövqe tutaraq Ermənistanı dəstəkləyən dövlətlər də artıq reallığı qəbul edir. Məsələn, Fransa ilə münasibətlər artıq normal hala düşür. Düzdür, münasibətlərin korlanmasına Fransanın tutduğu qeyri-adekvat mövqe səbəb olmuşdu. Bununla belə, Azərbaycan yenə də özünün əsl humanist, əməkdaşlıqda maraqlı və kinküdurət saxlamayan bir dövlət olduğunu, rasional düşündüyünü ortaya qoydu. Prezident İlham Əliyev müsahibəsində Fransa ilə münasibətlərinə aydınlıq gətirərək deyib ki, Fransa ilə problemlərin kökü bizdən gəlmir. İkinci Qarabağ müharibəsindən əvvəl Fransa ilə çox yaxşı münasibətlərimiz var idi. Prezident Sarkozinin, Prezident Ollandın səfərləri olmuş, mənim Fransaya rəsmi səfərlərim həyata keçirilmişdir: "Eyni zamanda, mən Prezident Makronun hakimiyyəti dövründə Fransaya səfər etmişəm. Bizim çox mehriban münasibətlərimiz olub, çox biznes fəaliyyəti aparılıb, 10-dan artıq qardaşlaşmış şəhərlərimiz olub. İkinci Qarabağ müharibəsi başlayan zaman biz ərazi bütövlüyümüzün bərpasına start verdik. Əfsuslar olsun ki, Fransanın mövqeyi heç cür anlaşılan deyildi. Çünki Fransa bir tərəfdən, ölkələrin ərazi bütövlüyünü müdafiə edir, - o, öz ərazi bütövlüyünü müdafiə etməyə səy göstərir, hazırda Danimarkanın, Ukraynanın ərazi bütövlüyünü müdafiə edir, - lakin əfsuslar olsun ki, onlar separatçıların tərəfini tutdular. Milli Assambleya və Senat separatçılara dəstək məqsədilə 10-dan artıq qətnamə qəbul edib və Ermənistanın özü tanımasa belə, sizin parlament hətta qondarma "Dağlıq Qarabağ"ı tanıyıb. Həmçinin hökumətlə münasibətlər gərgin idi. Lakin bir daha deyirəm, biz həmin gərginliyin mənbəyi olmamışıq. Biz, sadəcə öz suverenliyimizə hörmətlə yanaşmanı istəyirdik".

Vurğulandığı kimi, münasibətlərin kəskinləşməsinə səbəb məhz rəsmi Parisin davranışları idi. "Azərbaycanın atdığı addımlar yalnız cavab idi. Bizdə Fransa Prezidentinin və bir çox fransız rəsmilərinin, o cümlədən Senatınızın sədrinin, Milli Assambleyanızın sədrinin, tanınan şəxslərin dövlətimizi və şəxsən məni təhqir etmək üçün istifadə etdikləri ağır sözlərdən kataloqumuz var. Bundan əlavə, 2020-ci ildə İkinci Qarabağ müharibəsindən sonra və 2023-cü ildə antiterror əməliyyatından əvvəl xanım Pekres, cənab Barnye, cənab Retayyo kimi çox tanınan şəxslər, - bütün bu adlar auditoriyaya yaxşı məlumdur, - Qarabağa qeyri-qanuni səfərlər etmiş və separatçılara dəstək vermişlər. Bu, Azərbaycan dövlətçiliyinə açıq təhqir və tam hörmətsizlik əlaməti idi. Bizim tərəfimizdən deyilmiş sözlərin və ya atılmış addımların hamısı cavab olaraq baş vermişdir. Bəlkə də bu, ağır tərzdə olmuşdur. Ölçmək asan deyil. Lakin düşünürəm ki, bizim üçün vacib odur ki, qeyd etdiyiniz kimi, ötən ilin sonunda Prezident Makron ilə görüşüm oldu. Görüş çox müsbət keçdi və biz hər şeyi yenidən başlamaq razılığına gəldik. Biz buna hazırıq. Bizə hər hansı ölkə, o cümlədən Fransa ilə heç bir problem lazım deyil. Bir daha deyirəm, bu, bizim təşəbbüs deyildi, lakin indi düşünürəm ki, hər iki tərəf, xüsusən də Ermənistan ilə Azərbaycan arasında artıq əldə olunmuş sülhdən sonra normal münasibətlərə daha çox hazırdır", - deyə dövlət başçısı vurğulayıb.

Artıq situasiya dəyişib - nəticə etibarı ilə, Fransa səhvini anlayır və Azərbaycan da ortaya yenə də mühüm bir nümunə qoyur. Prezident İlham Əliyev deyib ki, Kopenhagendə Fransa prezidenti ilə görüş çox dostcasına keçdi: "Əlbəttə ki, görüş baş tutduqdan bir neçə ay sonra heyətlərimiz arasında xeyli təmaslar olub. Onlar müntəzəm olaraq əlaqədədirlər. Bir neçə görüş baş tutub. Bəli, bəzi məsələlər hələ də qalır. Prezident Makron və mən onların hər iki tərəfdən həll olunmasını qeyd etmişik. Lakin bir daha anlamaq vacibdir ki, bu hərəkət qarşılıqlı olmalıdır. İki suveren dövlət kimi biz bir-birimizə hörmət etməliyik, hüquq sistemlərimizə hörmətlə yanaşmalıyıq və bir-birimizin işlərinə qarışmalı deyilik. Əgər sizin sözdən istifadə etsəm, Kaledoniya və sairə məsələləri biz birinci ortaya atmadıq. Məhz Fransa Qarabağ kimi daxili məsələmizə müdaxilə etməyə başladı. Bu, nəinki həmin mövzuya, hətta siyasi gündəliyimizə də şamil edildi. Bir sözlə, buna son qoyulmalıdır. Düşünürəm ki, hər iki tərəf bunu necə etməyi bilir".

***Pərviz SADAYOĞLU***



# Birinci vitse-prezidentdən sərrast cavab

Yeni dünya nizamı yaranır. Dünyanın geosiyasi xəritəsində sərhədlər müəyyənləşdirilir. Hər kəsin yeri fərqlidir - kimisi düz mərkəzdə, proseslərin nüvəsində yer alır, kim(lər) də küncə qoyulur. Yəni bütün proseslərdən uzaqlarda, müşahidə postunda, başqa sözlə, kənarında, haradasa künc-bucaqda. Bütün bunları müəyyənləşdirən meyar isə peşəkarlıq səviyyəsidir. Ölkə rəhbəri Prezident cənab İlham Əliyevin uğurla həyata keçirdiyi çoxvektorlu daxili və xarici siyasəti nəticəsində Azərbaycan dövləti bu gün superdövlətlərlə eyni masada yer alır. Masanın tam mərkəzində. Haradan ki, müasir dünya üçün yeni qərarlar qəbul edilir; harada ki, dünya gücləri əyləşir. Son bir neçə ay ərzində şahidlik etdiyimiz proseslər və qarşıdakı perspektivlər bütün bunların ən aydın nümunəsidir, küncdəkilər (küncə qoyulanlar) üçün isə sübutu da hesab oluna bilər.

Dövlətimizin bu uğurlarını həzm edə bilməyən qüvvələr isə hər vəchlə öz çirkin qaraxayaxma kampaniyalarına davam edirlər. Bu günə qədər dəfələrlə onlara ən müxtəlif cavablar verilib. Lakin sonuncu cavab xaricdən maliyyələşən antimilli ünsürlərə həm də bir dərs oldu. Söhbət Münhen Təhlükəsizlik Konfransında qapı önündə dayanaraq, təxribat cəhdlərini davam etdirən Emin Hüseynovun sual vermək üçün müraciətinə Azərbaycanın Birinci vitse-prezidenti hörmətli Mehriban xanım Əliyevanın cavabından gedir. Həmin kadrları izləməyənlər üçün qısa bir xatırlatma etməkdə fayda var. Belə ki, sözügedən video Emin Hüseynovun konfrans zalından çıxan Mehriban xanım Əliyevaya "Azərbaycanda demokratiya ilə bağlı" sual vermək istədiyini bildirməsi ilə başlayır. Mehriban Əliyeva isə ayaq saxlayaraq, "Qadın paltarında səfirlikdə gizlənən insan sizsiniz? Sizə can sağlığı arzulayıram" - deyə, yoluna davam edib.

Təxminən yarım dəqiqəlik bir video əslində bir neçə yüz səhifəlik siyasi dərslik hesab oluna bilər. Birinci ona görə ki, Azərbaycan dövləti ona qarşı yönələn heç bir təxribatın qarşısında cavabsız qalacaq qədər gücsüz deyildir. Başqa sözlə, dövlətin bütün sahələrdə silah-sursatı kifayət qədərdir. Digər bir məqam hörmətli Mehriban xanımın timsalında Azərbaycan qadının mərhəmətinin, kübarlığının, incəliyinin təcəssümüdür. Mehriban xanım antimilli fəaliyyətlə məşğul olan Emin Hüseynova çox sakit, kübar bir şəkildə ağır bir dərs verir. Həm də Hüseynovu küncə qoyur, özü də tək ayağı üzərində dayanması şərti ilə. Mehriban xanım eminkimilərin nə vaxtsa dövlətinə layiqli vətəndaş olmalarına da haradasa inanır, başqa sözlə, onların islah olmaları üçün də mesaj verir. Eminə cansağlığı arzulamağı da unutmayan Mehriban xanımın bu ifadələri bütün antimilli ünsürlər üçün çağırış da hesab oluna bilər. Yəni sizin etdiyiniz bütün cinayətlər, çirkli əməllər bir müddət sonra əfv də oluna bilər. Çünki Azərbaycan dövləti humanizm və mərhəmət prinsiplərinə yüksək önəmini hər zaman nümayiş etdirir və həmrəyliyin gücləndirilməsinə yönəlik mühüm addımlar atır. Yetər ki, bu dırnaqarası niyyətlərdən əl çəkin.

Əks halda, Eminin timsalında bütün antimilli ünsürlər küncdə qalacaqlar, özü də tək ayaq üzərində.

***Nicat Dilqəmli***

***Qısa arayış:*** *Haqqında danışılan Emin Hüseynov Soros Fondunun vəsaitlərindən qeyri-şəffaf istifadə etməsi və ayrılan külli miqdarda vəsaiti talaması üzə çıxandan sonra ölkədən qaçmışdı. O, ölkədən qaçarkən qadın paltarından istifadə etmişdi. E.Hüseynov hazırda da antimilli fəaliyyətini davam etdirir. Hətta 44 günlük savaşda "novarçı" donuna girərək, erməni işğalının davam etməsi üçün təbliğat aparırdı. "Erməni hüquqlarının müdafiəçisi" kimi tanınan Emin Hüseynov erməni diaspor təşkilatlarının maliyələşdirdiyi qurumlardan qrant alır. Emin Hüseynov Mehman Hüseynovun böyük qardaşıdır.*

# Azərbaycan-Serbiya: Dostluq və faydalı əməkdaşlığın yeni mərhələsi

## Prezident İlham Əliyevin Serbiya Respublikasına rəsmi səfəri iki ölkə arasında yeni strateji məqsədlərə çatmaq üçün möhkəm zəmin yaradır

Prezident İlham Əliyevin fevralın 15-də Serbiya Respublikasına rəsmi səfəri iki ölkə arasında münasibətlərin mövcud inkişaf dinamikasını əks etdirməklə yeni strateji məqsədlərə çatmaq üçün potensial imkanların müzakirəsi və həlli baxımından mühüm əhəmiyyət kəsb edir. Səfər zamanı Azərbaycan Prezidentinin və birinci xanım Mehriban Əliyeva Belqraddakı Taşmaydan parkında Ümummilli Lider Heydər Əliyevin və görkəmli serb yazıçısı Milorad Paviçin abidələrini ziyarət etməsi mədəni-humanitar dostluğa dərin hörmətin ifadəsi hesab edilə bilər.

Azərbaycan və Serbiya dövlət başçılarının keçirilən təkbətək görüşündə yaxın tərəfdaşlıq münasibətlərinin son illərdə inkişafı ilə bağlı faydalı müzakirələr aparılıb, siyasi-iqtisadi və humanitar platformalarda ortaq maraqlara xidmət edən təşəbbüslər və əməkdaşlıq formatını vəziyyəti müsbət dəyərləndirilib.









### Tərəfdaşlıq Planı münasibətləri yüksək səviyyəyə qaldırıb

Azərbaycan və Serbiya arasında yaxın tərəfdaşlıq münasibətlərinin son illərdə inkişafı yüksələn templə davam etməkdədir və hər iki ölkənin dövlət başçılarının qarşılıqlı səfərləri və imzalanan sənədlər, hökumət nümayəndə heyətlərinin görüşləri, biznes-forumların keçirilməsi iqtisadi hərarəti daha da dərinləşdirməkdədir. Hər iki ölkə iqtisadi platformada ortaq maraqlara xidmət edən təşəbbüslər və əməkdaşlıq formatını da əsas gündəliyə çevirib və regionda yeni yaradılan enerji-kommunikasiya, nəqliyyat xətlərində birgə təmsil olunmaq iradələrini nümayiş etdirməkdədir.

Azərbaycan və Serbiya strateji tərəfdaşlıq əlaqələrinə malik ölkələrdir. 8 fevral 2013-cü ildə Bakıda "Azərbaycan Respublikası və Serbiya Respublikası arasında dostluq münasibətləri və strateji tərəfdaşlıq haqqında Bəyannamə", 21 may 2018-ci ildə Bakıda "Strateji tərəfdaşlıq üzrə Birgə Fəaliyyət Planı" və 23 noyabr 2022-cü ildə Belqradda Strateji Tərəfdaşlıq Şurasının yaradılması haqqında Memorandum imzalanıb ki, bu da münasibətlərin yüksəksəviyyəli ruhunu əks etdirir və son 4 ildə əlaqələrin möhkəmlənməsində mühüm rol oynayıb.

Azərbaycan Serbiya ilə münasibətlərin inkişafına əhəmiyyət verir və iki ölkə arasında əməkdaşlıq siyasi, iqtisadi və humanitar sahələri əhatə edir. Tərəflər arasında qurulmuş fəal siyasi dialoq beynəlxalq təşkilatlar çərçivəsində, xüsusən də ərazi bütövlüyü və suverenlik məsələlərində hər zaman bir-birini dəstəkləməsi ilə xarakterizə olunub. Parlamentlərarası əməkdaşlığın dövlətlərarası münasibətlərin inkişafında rolu təqdir edilib. İki ölkə arasında həm ikitərəfli əsasda, həm də beynəlxalq parlament platformaları çərçivəsində səmərəli əməkdaşlıq həyata keçirilib.

### Strateji Tərəfdaşlıq Şurasının 1-ci iclası

Belqradda Prezident İlham Əliyevin və Aleksandar Vuçiçin iştirakı ilə Azərbaycan Respublikası və Serbiya Respublikası arasında Strateji Tərəfdaşlıq Şurasının 1-ci iclasının keçirilməsi də mühüm siyasi-iqtisadi hadisə hesab edilə bilər. Tərəflər Şurada bir sıra mühüm mesajlar verməklə yaxın dostluq əlaqələrinin daim irəli getdiyini vurğulayıblar. Prezident Aleksandar Vuçiçin vurğuladığı kimi, bu tədbir xüsusi önəm daşıyır. "Bu gün keçirilən görüşün və Şura iclasının xüsusi rəmzi əhəmiyyəti var. Çünki o, Serbiya Respublikasının ən mühüm milli bayramı günündə - Dövlətçilik Günündə keçirilir və bu tarixi biz ən yaxın dostlarımızla - Prezident İlham Əliyevlə və Azərbaycandan gəlmiş qonaqlarımızla qeyd edirik" ifadəsi Azərbaycana olan böyük ehtiram və etimadın nümunəsi deməkdir.

A. Vuçiç bildirib ki, bu iclas ikitərəfli münasibətlərimizdə dönüş nöqtəsidir və ölkələrimiz arasında münasibətlərin ən yüksək strateji səviyyəyə qaldırılması üçün birgə siyasi iradənin bariz nümunəsidir, formalaşdırdığımız birgə mövqedən və razılaşmadan qaynaqlanır. Serbiya Respublikası yalnız az sayda ölkələrlə bu cür formatda görüşlər keçirir: "Prezident Əliyevin, o cümlədən Azərbaycan Respublikası və Serbiya Respublikası hökumətlərinin yüksəksəviyyəli rəsmilərinin və nazirlərin burada olması bu Şuraya hər iki tərəfin verdiyi əhəmiyyəti aydın şəkildə göstərir. Əminəm ki, bu gün gördüyümüz iş konkret nəticələrə, aydın razılaşmalara və uzunmüddətli əməkdaşlığa aid mövqeyə əsaslanır".

Serbiya Prezidenti bildirib ki, biz dost ölkə Azərbaycanla ən yaxşı strateji tərəfdaşlığı inkişaf etdirməkdə olduqca israrlıyıq. Bu məqsədə doğru gedəcəyik və müxtəlif sahələrdə münasibətlərimizin daha da inkişaf etdirilməsi üçün ürəkdən çalışacağıq: "Dostlara gəldikdə, qarşımıza çətinliklər çıxanda, bəzi məsələlərlə üzləşəndə biz hər zaman onları birlikdə həll edə bilirik. Bu, hər zaman belə olacaq. Arzu edirik ki, dostluq, daha yaxşı münasibətlərin qurulması, qarşılıqlı əlaqələr daha sürətlə və intensiv inkişaf etsin".

Serbiya Prezidenti cənab İlham Əliyevin liderliyinə xüsusi qiymət verərək ondan çox şeyi öyrəndiyini də etiraf edib: "Mən əziz dostum İlham Əliyevdən çox şeyi öyrənirəm, nəinki bu gün, həmçinin digər vaxtlarda. Elə bu səbəbdən bu gün həmin məqsədlə daha çox vaxt sərf etdim. Mən gələcəkdə də belə edəcəyəm. Bilirəm ki, o, çox sədaqətli dostdur. Bilirəm ki, biz Azərbaycandan çox yaxşı işlər gözləyə bilərik və inanıram ki, Azərbaycan xalqı hər zaman Serbiyadan və Serbiya xalqından yalnız yaxşı işləri gözləyə bilər. Serbiya nazirlərindən xahiş edərdim ki, onlar azərbaycanlı tərəfdaşlarımız kimi ürəkdən çalışsınlar".

Əməkdaşlıq planlarına əsasən, yaxın zamanlarda Belqrad və Bakı arasında birbaşa uçuşların açılması, mədəniyyət, idman, iqtisadiyyat, kənd təsərrüfatı, sənaye, hərbi-texniki əməkdaşlıq kimi müxtəlif sahələrdə mümkün imkanların genişləndirilməsi nəzərdə tutulur. Yaxın vaxtlarda Azərbaycana səfər edəcəyini deyən A. Vuçiç yeni faydalı nəticələr əldə ediləcəyinə inandığını bəyan edib. Hazırda yeni əməkdaşlıq istiqamətlərindən biri Dubrovka elektrik enerjisi stansiyasının qurulmasıdır. Bu elektrik infrastrukturunun yaradılması da məhz Azərbaycan Prezidentinin köməyi sayəsində mümkünləşir və hazırda texniki əsaslandırma işləri aparılır. Bu proses başa çatdıqdan sonra həmin stansiyanın işləməsi və Serbiyanın enerji sisteminə qoşulacağı təmin ediləcək.

### Balkanlarda və Cənubi Qafqazda vəziyyət çox sürətlə inkişaf edir

Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Azərbaycan və Serbiya dost ölkələrdir, bu dövlətin milli bayramı günündə rəsmi səfərin baş tutmasının özü aramızdakı səmimiyyətin səviyyəsini nümayiş etdirir: "Dostluğumuz haqqında və əməkdaşlığımızı necə gücləndirəcəyimiz barədə danışarkən heç bir sərhədimiz, vaxt məhdudiyyətimiz, heç bir şübhəmiz yoxdur. Bu gün Dövlətçilik Günüdür, dövlətçilik haqqında düşündüyümüz bir gündür. Serbiya xalqını və Prezidentini Serbiya dövlətçiliyinin möhkəmləndirilməsindəki nailiyyətləri münasibətilə təbrik etmək istəyirəm. Ölkə Prezidentinin rəhbərliyi ilə uğurla inkişaf edir, dövlətçiliyini, dövlət qurumlarını gücləndirir. Biz bunu müşahidə etməkdən çox şadıq, çünki Azərbaycan və Serbiya çox dost ölkələrdir. Strateji Şuranın bugünkü ilk iclası də qərar verilmiş və razılaşdırılmış məsələlərin həyata keçirildiyinin bariz bir nümunəsidir. Bu gün hökumət üzvlərinin demək olar ki, yarısı məni müşayiət edir. Bu, özü də onu göstərir ki, nümayəndə heyətlərinin üzvləri arasında, hamımızın arasında müzakirə ediləcək çoxlu məsələlər var. Dostum Aleksandarın Azərbaycana bu il tezliklə baş tutacaq səfərindən əvvəl bugünkü səfərin nəticələrini artıq əldə etməliyik. Mən Azərbaycan nümayəndə heyətinin bütün üzvlərindən xahiş edirəm, buna maksimum dərəcədə ciddi yanaşsınlar ki, həmişə olduğu kimi, razılaşdıqlarımızı nisbətən qısa müddət ərzində həyata keçirək".

Azərbaycan Prezidenti həmkarı Vuçiçlə geniş müzakirələr apardığını bildirib və onun geosiyasi hadisələrin inkişafının müxtəlif aspektləri ilə bağlı baxışı, bilik və təcrübəsinin güclü təəssürat yaratdığını xatırladıb. Belə ki, Balkanlarda, Cənubi Qafqazda və daha geniş regionda vəziyyət çox sürətlə inkişaf edir, bir çox gözlənilməz ssenarilər mövcuddur. Ona görə də fikir mübadiləsi, məlumat mübadiləsi aparmaq, baş verənlərlə bağlı müəyyən təhlillər etmək üçün hazır və daimi əlaqədə olmaq hədəflərə maksimum dərəcədə çatmaq baxımından mühüm əhəmiyyət daşıyır.

### Serbiyanın elektrik enerjisi təminatında Azərbaycanın dəstəyi

Azərbaycan və Serbiya arasında yeni tərəfdaşlıq sahələrinə gəlincə, gündəlikdən və iclasda təmsil olunan geniş nümayəndə heyətinin üzvlərinin təqdimatlarından da aydın olur ki, gündəlik çox genişlənir. Hər iki ölkə təkcə siyasi istiqamətdə, beynəlxalq arenada sıx işləmir, eyni zamanda, iqtisadiyyatlar, sənaye sektorları üçün vacib layihələr icra edir. Azərbaycanın Serbiyanın sənaye sektorunda mühüm yer tutan elektrik stansiyasının tikintisinə önəm verməsi də müasir enerji gündəliyinin istiqamətlərindən biri kimi əhəmiyyət daşıyır. Eyni zamanda, bu, enerji sektorunda əməkdaşlığın şaxələndirilməsinin vacib göstəricisidir. Azərbaycan xeyli müddətdir ki, Serbiya ilə qaz əməkdaşlığını həyata keçirir, indi isə növbəti mərhələyə - qazın yekun məhsul olan elektrik enerjisinə çevrilməsi üzrə layihənin başlanması hər iki tərəf üçün maksimal enerji səmərəliliyi baxımından imkanlar açacaq.

Bu, həm də Avropa regionunda sərmayə planında əlavə mərhələ açır. Cənab İlham Əliyevin də vurğuladığı kimi bu, Azərbaycanın son illərdə Avropaya əsas investisiya qoyuluşlarından biri olacaq: "Bu, həmçinin yüksəksəviyyəli qarşılıqlı etimadı nümayiş etdirir. Çünki siz yalnız yaxşı münasibətlərinizin olduğu ölkəyə və tərəfdaşlarınıza etibar etdikdə investisiya yatırırsınız. Siz Aleksandar Vuçiçin müdrik rəhbərliyi ilə Serbiyada sabitliyin və inkişafın uzun müddət ərzində vacib amil olacağını bilirsiniz".

İclasda hökumətlərarası komissiyaların sədrləri və digər aidiyyəti nazirlər məruzələrlə çıxış edib və münasibətlərin irəliyə aparılması üçün səmərəli təkliflər irəli sürülüb. Həmin çərçivədə Azərbaycanla Serbiya arasında energetika, investisiyalar, bərpaolunan enerji, turizm, kənd təsərrüfatı, mədəniyyət və digər sahələrdə əməkdaşlıq məsələləri müzakirə olunub. Dövlət başçıları bu istiqamətlərdə əməkdaşlığın genişləndirilməsi, konkret layihələrin təqdim olunması ilə əlaqədar tapşırıqlarını veriblər. Əməkdaşlığın turizm və mədəniyyət sahəsində inkişafında yeni imkanlardan biri kimi Bakı-Belqrad aviareyslərinin bu ilin mayından başlayacağına dair razılıq əldə olunub. Bununla yanaşı, ölkələrimiz arasında humanitar təmasların və turizmin inkişafına töhfə verəcək digər addımların atılacağına da inam ifadə olunub.

Qeyd edək ki, prezidentlər İlham Əliyev və Aleksandar Vuçiç Serbiya Respublikası ilə Azərbaycan Respublikası arasında Strateji Tərəfdaşlıq Şurasının 1-ci iclasının Qərarını imzalayıblar.

davamı 5-ci səhifədə

# Azərbaycan-Serbiya: Dostluq və faydalı əməkdaşlığın yeni mərhələsi

## Prezident İlham Əliyevin Serbiya Respublikasına rəsmi səfəri iki ölkə arasında yeni strateji məqsədlərə çatmaq üçün möhkəm zəmin yaradır

əvvəli 4-cü səhifədə



Ölkələr arasında ticarət-iqtisadi əlaqələrin inkişafında müsbət dinamikanın mövcudluğuna baxmayaraq, mövcud statistik göstəricilər real potensialı əks etdirmir və siyasi münasibətlərin səviyyəsinə uyğun gəlmir. A.Vuçiçin də vurğuladığı kimi, əməkdaşlığın daha da genişləndirilməsi üçün böyük imkanları səfərbər etmək vacibdir. Mətbuata bəyanatında Serbiya Prezidenti qeyd etdi ki, biz bir-birimizlə məsləhətləşdik, bizim elə əlaqələrimiz var ki, nə vaxt böhran baş versə, bir-birimizə açığıq və bir-birimizlə danışırıq. "Bizim əməkdaşlığımız həyatın hər bir sahəsində inkişaf edir. 2012-ci illə müqayisədə xidmətlər sahəsində ticarət dövriyyəmiz əvvəlkindən 16 dəfə, 16 faiz deyil, 16



### Əlaqələrin inkişafı üçün güclü potensial mövcuddur

dəfə çoxdur. Həmçinin strateji tərəfdaşlıq sayəsində biz Azərbaycanla yeni əlaqələr, mümkün olan ən yaxın əlaqələr qurmuşuq. Mən hesab edirəm ki, bu, Serbiya Respublikası və onun vətəndaşları üçün olduqca vacibdir. Bizim sosial həyatın müxtəlif sahələrində əməkdaşlığımız daha mühüm və daha böyük ola bilər və olmalıdır. Mən hesab edirəm ki, daha çox iş və səylərlə, bizim tərəfimizdən daha çalışqan yanaşma ilə gələcəkdə hətta daha yaxşı nəticələrə nail olacağıq".

Qeyd edək ki, ötən dövrdə tərəflər arasında 57 sənəd imzalanıb və fevralı 15-də mübadilə olunan sənədləri də əlavə etdikdə onların sayı 65-ə yaxınlaşır.

Bu sənədlər isə siyasi, iqtisadi, sosial həyatın bütün sahələrində münasibətləri yaxşılaşdırmaq üçün möhkəm zəmin rolunu oynayacaq. Ümumilikdə, əvvəlki sənədlər və yeni imzalanmış anlaşma memorandumları müasir əməkdaşlıq gündəliyinin genişlənməsinə və potensialların reallaşdırılmasına, o cümlədən enerji sektorunda dayanıqlı təminatlara möhkəm hüquq baza yaradır.

Hər iki ölkənin biznes və investisiya qurumları arasında çox müsbət əlaqələr var. Biznes-forumlar iqtisadi təmasları əlaqələndirmək üçün mühüm rol oynayır. Sentyabr ayında Azərbaycanda keçiriləcək investisiya forumunda biznes icması yeni təklif və təşəbbüslərlə layihələrin icrası istiqamətində əlavə prioritetləri müəyyənləşdirəcək. Eyni zamanda, Serbiya Prezidentinin də ölkəmizə səfəri gözlənilir ki, səfərdə biznes dairələri, bank sektoru və digər maliyyə-iqtisadi dairələrin nümayəndələrinin təmsilçiliyi iqtisadi-investisiya mübadilələrində yeni fürsət olacaq. Bu, həm də qlobal biznes təqdimatı layihəsi olan EXPO üçün imkan olacaq. Çünki Serbiyada 2027-ci ildə keçiriləcək ən böyük "EXPO 2027" tədbirində Azərbaycan da iştirak edəcək ki, sərgi öncəsində bizneslərin bir araya gəlməsi faydalı təşviqlərə yol açır.

### Yeni hədəf prioritetləri - sənədlərin mübadiləsi

Prezident İlham Əliyevin və Serbiya Prezidenti Aleksandar Vuçiçin iştirakı ilə Azərbaycan-Serbiya sənədlərinin mübadiləsi mərasimi əlaqələrin yeni vizyonunu müəyyən etməklə mühüm hüquqi bazanın yaradılması kimi səciyyələndirilə bilər. Xatırladaq ki, "Azərbaycan Respublikası Hökuməti ilə Serbiya Respublikası Hökuməti arasında qida təhlükəsizliyi sahəsində əməkdaşlıq haqqında Saziş"i, "Azərbaycan Respublikası Hökuməti ilə Serbiya Respublikası Hökuməti arasında Serbiya Respublikasında qaz-turbin elektrik stansiyasının layihələndirilməsi, tikintisi və idarə olunması haqqında Saziş"i, "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə Serbiya Respublikasının İqtisadiyyat Nazirliyi arasında Anlaşma Memorandumu" mübadilə edilib. Həmçinin, "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi ilə Serbiya Respublikasının İnformasiya və Telekommunikasiya Nazirliyi arasında media və kommunikasiya sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu", "Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə Serbiya Respublikasının Mədəniyyət Nazirliyi arasında 2026-2030-cu illər üçün mədəniyyət sahəsində Əməkdaşlıq Memorandumu", "Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi ilə Serbiya Respublikasının İdman Nazirliyi arasında idman sahəsində Anlaşma Memorandumu" və "Azərbaycan Respublikasının İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi ilə Serbiya Respublikasının Milli Tibbi Sığorta Fondu arasında tibbi sığorta sistemləri sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu" da mübadilə olunan sənədlər sırasındadır.



### Kənd təsərrüfatı məhsullarının ixracı üçün yeni qapı

İqtisadi əməkdaşlıq, kənd təsərrüfatı, eləcə də kənd təsərrüfatı məhsullarının mübadiləsi haqqında səylərin artırılması da vacib prioritetlərdəndir. Azərbaycanın, əlalxüsus da Zirənin və Naxçıvanın qida və kənd təsərrüfatı məhsulları Serbiya bazarı üçün xüsusi əhəmiyyət daşıyır. Digər mənbələrdən daxil olan məhsulların qiyməti ilə müqayisədə Azərbaycan mallarının ucuz təchizatı yerli fermerlər və emal tədarükçüləri üçün fürsət deməkdir. Bu, kənd təsərrüfatı məhsullarının Rusiya və digər ənənəvi bazarlardan yeni ixrac coğrafiyalarına, Avropanın, Serbiyanın yeni bazar strukturlarına daxil olmasını təşviq edən mühüm stimullardır. Bu baxımdan, azərbaycanlı sahibkarlar üçün yeni ticarət qapısı açıla bilər.

Qarşıda müasir enerji dövrü başlayıb. Serbiya müxtəlif dövrlərdə elektrik enerjisi ilə təchizatda fasilələrlə üzləşib, 20 il əvvəl gündəlik 6 saat ərzində elektrik enerjisi təmin edib, bugünkü vəziyyət sabitləşsə də, eyni vəziyyətin sabah yaşanması istisna deyil. Bu baxımdan bu ölkənin dayanıqlı elektrik enerjisi ilə təchizatında da Azərbaycan həlledici rol oynayacaq. A.Vuçiçin etiraf etdiyi kimi, Azərbaycanın giqavatlarla ölçülən elektrik enerjisi olacaq ki, bu, Serbiyanın da gələcək təminatına müsbət təsir edəcək. Həmçinin, Azərbaycan Serbiyanın daha çox elektrik enerjisi istehsalı üçün qaz təminatına kömək edəcək. SOCAR bu prosesdə qlobal şirkət kimi layihənin icrasında əsas partnyor olacaq və 2029-cu ilə qədər qazla işləyən elektrik enerjisi stansiyasının açılması gözlənilir. Qazla işləyən 500 meqavatlıq elektrik enerjisi stansiyası Avropa region üçün investisiya nümunəsinə çevriləcək.

Serbiyanın iqtisadi inkişaf yolu müəyyən qədər Azərbaycana yaxındır, heç bir dövlətdən asılı olmadan öz inkişaf modeli ilə irəliləyir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Serbiya - təbii sərvətləri olmayan bir ölkədir, buna baxmayaraq, iqtisadi cəhətdən uğurla inkişaf edir, öz gücünə arxalanır, heç bir yerdən heç bir yardım almır.

### Pan-Avropa enerji ailəsinin üzvü

Serbiya hökuməti Azərbaycanın regionda və qlobal miqyasda etibarlı enerji ölkəsi kimi durmadan nüfuzunun artdığını, əlalxüsus da qaz sahəsində yeni tərəfdaşların enerji ailəsinə daxil olduğunu təqdir edərək, bu enerji zəncirində ölkəsinin də yer aldığını xatırladıb. Qeyd edək ki, Azərbaycanın müəllifi olduğu Cənub Qaz Dəhlizi koalisiyasında yer alan Avropa İttifaqı (Aİ) ölkələrindən biri kimi Serbiya ilə sıx əməkdaşlıq 3 ildir ki, müsbət dinamika üzrə davam etməkdədir. 2023-cü ildə Azərbaycanın Energetika Nazirliyi ilə Serbiyanın Mədənçilik və Energetika Nazirliyi, eləcə də SOCAR və "Srbijagas" arasında əməkdaşlığın təşviqinə dair Anlaşma Memorandumu və qaz satışına dair müqavilə imzalanıb. Həmin sənədlərin icrası 2023-cü ildən təmin edilməyə başlayıb və Bolqarıstan-Serbiya İnterkonnektoru vasitəsilə Serbiyaya çatdırılması mümkün olub.

Hazırda Azərbaycan 16 ölkəyə qaz ixrac edir ki, 12-si Avropa dövlətidir. Bu yüksək etimad və sadiq tərəfdaşlığın nəticəsidir ki, Avropa Komissiyası Azərbaycanı etibarlı tərəfdaş və Pan-Avropa enerji təchizatçısı kimi tanıyır. Bir sözlə, respublikamızdan nəql olunan neft və qaz bir çox ölkələrin enerji təhlükəsizliyində və möhkəmləndirilməsində böyük dəyişiklik yaradır.

### Əsas ixrac istiqamətimiz Avropa məkanıdır...

Elektrik stansiyalarının tikintisi və yenidən qurulması, onların reabilitasiyası hər bir ölkənin gələcək inkişafını təmin edir. Xüsusilə təbii resursları olmayan ölkələr bir çox hallarda asılı vəziyyətə düşürlər. Ona görə daxili enerji, istehsalat gücünün mövcudluğu hər bir ölkənin enerji təhlükəsizliyini təmin edir. Prezident İlham Əliyev bu baxımdan Serbiyanın enerji təhlükəsizliyində də köməyimizi əsirgəməyəcəyimizi bəyan etdi: "İndi Serbiya ixrac ediləcək qazı da elektrik enerjisinə çevirərək, artıq təmiz elektrikin əldə edilməsinə də nail olacaq. Bu, həm Serbiya bazarı üçün və gələcəkdə ixrac üçün də imkanlar yaradacaq. Bu gün Azərbaycanın energetika sahəsində ixrac potensialı 2 giqavata bərabərdir. Bu rəqəm artacaq. Çünki biz indi bir çox bərpaolunan enerji stansiyalarının tikintisi ilə məşğuluq və bu sahədə də Serbiya ilə əməkdaşlıq etməyə hazırıq".

Azərbaycan 2032-ci ilə qədər əlavə 8 giqavat enerji gücünü əldə edəcək və bunun böyük hissəsi ixraca gedəcək. Bunun üçün ölkəmizin yeni və daha genişhəcmli transmissiya imkanları olmalıdır. Çünki əsas ixrac istiqamətimiz Avropa məkanıdır və bu ticarət şaxəsində Serbiyanın da yer alması üçün imkanlar artır.

Azərbaycan Prezidenti hədəf prioritetlərin təkcə enerji ilə kifayətlənmədiyini, bütün inkişaf kommunikasiya kanallarının müştərək icrasının vacibliyinə diqqət çəkdi: "Həm siyasi, həm iqtisadi, həm də energetika sahəsində əlaqələrimizi daha da gücləndirmək, beynəlxalq platformalarda, beynəlxalq təşkilatlar çərçivəsində bundan sonra da bir-birimizin ərazi bütövlüyünü və suverenliyini dəstəkləmək, birgə sərmayə layihələrini həyata keçirmək, energetika və nəqliyyat sahələrində yeni yaranmış imkanlardan yararlanaraq, daha irəliyə baxaraq çox güclü bir sinergiya yaratmaqdır".

### "Xəzər-Qara dəniz-Avropa Yaşıl Enerji Dəhlizi"ndə Serbiyanın iştirakı

Serbiya ənənəvi yanacaq tədarükü ilə yanaşı, Azərbaycanın bərpaolunan enerji mənbələrinin tədarükündə də maraqlı tərəf kimi fəallıq nümayiş etdirir. Rəsmi Belqrad dəfələrlə "Xəzər-Qara dəniz-Avropa Yaşıl Enerji Dəhlizi" layihəsinin həyata keçirilməsinə xüsusi maraq göstərdiklərini və həmin dəhliz vasitəsilə nəql olunacaq Azərbaycanın "yaşıl enerji" ehtiyatlarının əldə edilməsinə maraqlarını ifadə edib. Bu əməkdaşlıq Azərbaycanın bərpaolunan enerji resurslarını tədarük etməklə yanaşı, Serbiyanın enerji təchizatının şaxələnməsi və təmiz enerjiyə keçidinə, "yaşıl iqtisadiyyat" quruculuğuna töhfə verəcək.

Azərbaycan artıq bir çox ölkədə potensial səhmdar və sərmayədar obrazı ilə məşhurlaşmaqdadır. Bu investisiya zəncirinə Serbiyanı da əlavə edərək böyük həcmdə sərmayə qoymağa hazırlaşır.

Ümumilikdə, hər iki ölkə qarşılıqlı əlaqələri daha da irəliyə aparmaq, strateji tərəfdaşlıq münasibətlərini möhkəmləndirmək və birgə layihələrin icrasını təşviq etmək üçün iradəyə malikdir və bu dayanıqlı potensialdan istifadə etmək niyyətini gizlətmir. A.Brnabiç qeyd edib ki, enerji, infrastruktur, aviasiya, kənd təsərrüfatı və mədəni-humanitar sahələrdə mövcud əməkdaşlıq imkanları qarşılıqlı faydalı layihələrin reallaşdırılması üçün geniş perspektivlər açır.

Bir sözlə, Prezident İlham Əliyev və Aleksandar Vuçiçin mətbuata bəyanatlarında səsləndirilən fikirlər də təsdiqləyir ki, imkanlar daha böyükdür və qarşıda daha yeni dövr başlayır.

**E.CƏFƏRLİ**

# Yeni Azərbaycan Partiyası inam və etimad ünvanıdır

## YAP Xətai rayon təşkilatının təsis olunmasının 33 illiyi qeyd edilib









Fevralın 13-də Yeni Azərbaycan Partiyası (YAP) Xətai rayon təşkilatının təsis olunmasının 33 illiyinə həsr olunmuş tədbir keçirilib.

Tədbirdən öncə müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsi ziyarət olunaraq əziz xatirəsi ehtiramla yad edilib.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Sonra Yeni Azərbaycan Partiyasının yaranması və inkişaf tarixindən bəhs edən videoçarx nümayiş olunub.

Tədbirdə YAP Xətai rayon təşkilatının sədri Ramil Mirzəyev, Xətai Rayon İcra Hakimiyyətinin başçısı Rafiq Quluyev, YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Mixail Zabelin, Milli Məclisin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc, Milli Məclisin deputatları Vüqar Rəhimzadə və Pərvanə Vəliyeva, YAP Mərkəzi Aparatının İnformasiya texnologiyaları və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Nurlan Qələndərli və Elm və Təhsil Nazirliyinin Akademik Y.H.Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutunun baş direktoru, akademik Vaqif Abbasov çıxış ediblər.

Çıxışlarda Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə Yeni Azərbaycan Partiyasının yaradılmasının müasir dövlətçilik tariximizin dönüş nöqtəsi olduğu bildirilib. Qeyd olunub ki, Yeni Azərbaycan Partiyası ötən müddət ərzində Heydər Əliyev ideyaları əsasında və Prezident İlham Əliyevin rəhbərliyi ilə önəmli nailiyyətlərə imza ataraq ümumxalq etimadı qazanıb.

Çıxışlarda Azərbaycanın ərazi bütövlüyü və mütləq suverenliyinin bərpasının tarixi əhəmiyyəti xüsusi vurğulanaraq qazanılan nailiyyətlərin əsasında milli maraqlara söykənən məqsədyönlü siyasətin və xalq-iqtidar birliyinin dayandığı qeyd edilib.

Daha sonra partiyanın ictimai-siyasi həyatında fərqlənən bir qrup şəxsə fəxri fərman, YAP sıralarına yeni qəbul olunanlara üzvlük vəsiqələri təqdim olunub.

Tədbirin rəsmi hissəsi Yeni Azərbaycan Partiyasının Himninin səsləndirilməsi ilə başa çatıb.

Sonda bədii hissə təqdim olunub.

# Qarşılıqlı etimad quruculuğunda növbəti addım...

## Azərbaycanın vətəndaş cəmiyyəti üzvlərinin delimitasiya olunmuş hissədən Ermənistana keçməsi sülh mühitinin göstəricisidir

Hazırda Cənubi Qafqazda dayanıqlı sülhün və sabitliyin təmin olunması üçün əlverişli mühit yaranıb. Ötən ilin avqustunda Vaşinqtonda Azərbaycanla Ermənistan arasında sülh sazişinin paraflanmasından sonra tərəflər arasında etimadın formalaşması üçün addımlar atılır. Vaşinqton razılaşmalarında əksini tapan məqamlardan birində tərəflər arasında etimad mühitininin formalaşdırılması prosesində vətəndaş cəmiyyəti nümayəndələrinin qarşılıqlı səfərlərinin təşkil olunmasıdır.

### QHT təmsilçilərinin qarşılıqlı səfərləri dəstəklənir

Xatırladaq ki, ötən ilin oktyabr və noyabr aylarında bu cür səfərlər reallaşmışdı. Belə ki, Ermənistan və Azərbaycan vətəndaş cəmiyyəti nümayəndələrinin iştirakı ilə "Sülh körpüsü" Təşəbbüsü çərçivəsində ilk görüş 2025-ci il oktyabrın 21-22-də İrəvanda keçirilib. Həmin görüşdə qarşıdakı 6 ay ərzində vətəndaş cəmiyyəti nümayəndələrinin məlumatlandırılması istiqamətində görüləcək işlər, ekspertlər və media sektorunda əməkdaşlıq məsələləri müzakirə edilib, konkret istiqamətlər üzrə layihələrin həyata keçirilməsi üçün hazırlıq işlərinə başlanılması təsdiqlənmişdi.

Sonra Ermənistanın vətəndaş cəmiyyəti nümayəndələrindən ibarət qrup noyabrın 21-də Bakıya səfər etmişdi. İki günlük səfər çərçivəsində "Sülh körpüsü" Təşəbbüsünün Ermənistandan olan nümayəndələri Areq Koçinyan, Boris Navasardyan, Naira Sultanyan, Narek Minasyan və Samvel Meliksetyan Azərbaycandan olan həmkarları Fərhad Məmmədov, Rusif Hüseynov, Kəmalə Məmmədova, Ramil İskəndərli və Fuad Abdullayev ilə görüşmüşdülər. Görüş zamanı Azərbaycan və Ermənistan arasında sülh prosesinin dinamikası, vətəndaş cəmiyyətinin dialoqun bərpasındakı rolu və yaxın gələcəkdə icra olunacaq birgə layihələr müzakirə olunub, həmçinin sülh prosesi ilə bağlı hər iki cəmiyyəti maraqlandıran aktual mövzulara toxunulub. Bundan əlavə, media məkanında birgə fəaliyyətin intensivləşdirilməsi, ekspert qrupları arasında birbaşa əlaqələrin qurulması, Azərbaycan və Ermənistan vətəndaş cəmiyyətlərinin sülh prosesinə daha geniş şəkildə cəlb edilməsi barədə razılıq əldə olunub. "Sülh körpüsü" Təşəbbüsü çərçivəsində işgüzar səviyyədə əlaqələrin və hər iki ölkəyə qarşılıqlı səfərlərin davam etdirilməsi də qərara alınmışdı.

Səfər zamanı "Sülh körpüsü" Təşəbbüsü üzvləri Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev ilə görüşmüşdülər. Səmimi şəraitdə keçən fikir mübadiləsi zamanı Vaşinqton görüşündən sonra Azərbaycan və Ermənistan tərəfindən sülh gündəliyinin möhkəmləndirilməsi istiqamətində atılan addımlar müzakirə olunub. Hikmət Hacıyev Təşəbbüs üzvlərinin suallarını cavablandırıb.





### Aşağı Əskipara kəndindən Voskepar kəndinə keçid...

Qarşılıqlı etimad quruculuğuna xidmət edən bu layihə çərçivəsində sayca üçüncü səfər reallaşıb. Belə ki, Azərbaycanın vətəndaş cəmiyyətinin bir qrup nümayəndəsi fevralın 13-də Ermənistana bir neçə günlük səfər edib. Vacib məqam odur ki, QHT nümayəndələrimiz qonşu ölkəyə bundan əvvəlki səfərdə olduğu kimi, hava yolu ilə, bu dəfə Azərbaycanın Aşağı Əskipara və Ermənistanın Voskepar kəndləri yaxınlığındakı quru sərhədin delimitasiya və demarkasiya olunmuş hissəsindən keçib gediblər. Bu fakt iki ölkə arasında "de-fakto" sülhün bərqərar olmasının daha bir göstəricisidir. Eləcə də, bu amil rəsmi Bakının münaqişə başa çatandan dərhal sonra irəli sürdüyü sülh gündəliyi sayəsində mümkünə çevrilir. Əslində, bu keçid iştirakçılar tərəfindən etimadın möhkəmləndirilməsi istiqamətində atılan praktiki addım, iki ölkə arasında normallaşma prosesinin daha bir bariz göstəricisi sayılmalıdır.

Qeyd edək ki, Azərbaycanın vətəndaş cəmiyyətinin üzvləri Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan və xarici işlər nazirinin müavini Vahan Kostanyan ilə görüşlər keçiriblər. Bu müzakirələr sülh gündəliyinin dəstəklənməsində vətəndaş cəmiyyətinin rolu və ictimai təşəbbüslərin rəsmi səyləri necə tamamlaya biləcəyi barədə fikir mübadiləsi üçün imkan yaradıb.

Bundan əlavə, Ermənistanın Tsaxkadzor şəhərində "Sülh körpüsü" Təşəbbüsü çərçivəsində ikigünlük konfrans keçirilib. Tədbir çərçivəsində hər iki ölkənin vətəndaş cəmiyyəti, ekspert icması və media nümayəndələrinin iştirakı ilə ikitərəfli dəyirmi masa başa tutub. Tərəflər geniş tərkibdə təmsil olunub ki, bu da hər iki ölkənin inklüziv və davamlı dialoqa sadiqliyini bir daha təsdiqləyir. Müzakirələr Azərbaycan-Ermənistan münasibətlərinin inkişafının hazırkı mərhələsi və gələcək istiqamətlərinə, 2025-ci il 8 avqust tarixli Vaşinqton razılaşmalarına uyğun olaraq sülh gündəliyinin həyata keçirilməsinə və onun regionun sonrakı inkişafındakı roluna həsr olunub. İştirakçılar dəyişən regional təhlükəsizlik mühiti və sülh prosesi nəticəsində yaranan iqtisadi imkanlarla bağlı fikir mübadiləsi aparıblar.

Ayrıca bir sessiya dialoq iştirakçıları arasında əməkdaşlığa, o cümlədən birgə layihələrə, ictimai kommunikasiya strategiyalarına və cəmiyyətlərarası qarşılıqlı fəaliyyət mexanizmlərinə həsr edilib. Etimadın möhkəmləndirilməsini, ictimai diplomatiyanı və cəmiyyətlər səviyyəsində yaxınlaşmanı dəstəkləyən praktiki tövsiyələrin işlənib hazırlanmasına xüsusi diqqət yetirilib. Həmçinin, regional təhlükəsizliklə bağlı məsələlər geniş müzakirə olunub.

Rəsmi sessiyalarla yanaşı, əlaqələrin inkişafına və konstruktiv mühitin formalaşmasına töhfə verən qeyri-rəsmi görüşlər də keçirilib. İştirakçılar davamlı sülhün üstünlüklərini və cəmiyyətlərarası münasibətlərin qurulmasından əldə edilə biləcək mümkün sosial-iqtisadi faydaları da nəzərdən keçiriblər. Vətəndaşlar üçün sülh prosesinin real nəticələrinin əldə olunması yolları və gözləntilər müzakirə edilib.

### Xalq diplomatiyası sülh üçün böyük imkandır

Beləliklə, onilliklər ərzində münaqişədən əziyyət çəkən Cənubi Qafqaz coğrafiyasında yeni bir dönəm başlayıb. Ötən dövrdə Azərbaycanın siyasi rəhbərliyi müxtəlif daxili və xarici auditoriyalar qarşısında ölkəmizin sülh prosesinə, Vaşinqton razılaşmalarına sadiqliyini dəfələrlə birmənalı şəkildə təsdiqləyib. Azərbaycanı fərqləndirən əsas məqamlardan biri də ondan ibarətdir ki, ölkədə sülhyaratma prosesi ilə bağlı fikir ayrılığı yoxdur, bütün siyasi qüvvələr və vətəndaş cəmiyyəti təsisatları hakimiyyətin bu istiqamətdə apardığı siyasəti dəstəkləyir. Azərbaycan tarixi unutmamaqla sülhə qapıları açıq saxlayır.

Nəzərə alaq ki, Azərbaycan və Ermənistan eyni coğrafiyanı bölüşürlər. Vurulan yaralardan sonra barışıq mühiti yaratmaq çətin görünsə də, əbədi düşmənçilik də istisnadır. Bu mənada, Azərbaycan və Ermənistanın vətəndaş cəmiyyətlərinin təmsilçilərinin görüşləri nikbinlik doğurur. Xalq diplomatiyasının işə salınması ilə sülh prosesində yeni və çox mühüm mərhələ başlayıb.

*Nardar BAYRAMLI*

# Bir kəndin faciəsi

## Qaradağlıda yaşananlar yaddaşımızdan silinmir...

**Tarixmizdə elə faciəli səhifələr var ki, onları zaman silə bilmir. Belə ağrılı, qanlı və unudulmaz hadisələrdən biri də məhz Qaradağlı faciəsidir. Bu faciə təkcə bir kəndin deyil, bütövlükdə xalqımızın taleyinə yazılmış ağır sınaq, yaddaşımıza həkk olunmuş qara bir səhifədir. Qaradağlı Qarabağın cənub-şərqində, Xankəndi-Xocavənd yolu üzərində yerləşən strateji yaşayış məntəqəsi olub. 1988-ci ildən münaqişənin silahlı mərhələyə keçməsi ilə kənd ön xəttə çevrilib, nəqliyyat əlaqələri kəsilib və faktiki təcrid vəziyyətində qalıb. Hücumun aktiv mərhələsi 14 fevral 1992-ci ildə başlayıb. Kənd bir neçə istiqamətdən intensiv atəşə tutulub, 17 fevral səhər saatlarında isə həlledici mərhələyə keçib. Müdafiəçilər sursatın tükənməsinə baxmayaraq, müqavimət göstərsələr də, günün ikinci yarısında kənd silahlı qüvvələrin nəzarətinə keçib. Bu faciə təsadüfi deyildi. O dövrdə Birinci Qarabağ müharibəsi çərçivəsində Azərbaycan torpaqlarına qarşı aparılan işğal siyasətinin növbəti qanlı mərhələsi idi. Qaradağlıda baş verənlər beynəlxalq humanitar hüququn kobud şəkildə pozulması, dinc əhaliyə qarşı törədilmiş ağır cinayət idi. Silahsız insanlara qarşı göstərilən vəhşilik bir daha sübut etdi ki, müharibənin ən böyük qurbanı məhz mülki əhalidir.**




### Məqsəd azərbaycanlıları Qarabağdan çıxarmaq idi

XX əsrin 80-ci illərinin ikinci yarısında ermənilər "böyük Ermənistan" ideyasını həyata keçirmək üçün Azərbaycanın Qarabağ bölgəsinə ərazi iddiaları irəli sürürdülər. 1988-ci ilin əvvəllərindən etibarən Qarabağın iqtisadi geriliyi pərdəsi altında vilayətin Ermənistana birləşdirilməsi üçün Xankəndidə və İrəvanda tətillər keçirilir, mitinqlər təşkil edilirdi. Vəziyyət getdikcə daha da gərginləşir, Qarabağın dağlıq hissəsində azərbaycanlı əhaliyə qarşı təzyiqlər, təqiblər, silahlı hücumlar təşkil edilirdi. Əsas məqsəd azərbaycanlıları Qarabağdan sıxışdırıb çıxarmaq idi. 1991-ci ilin sonları - 1992-ci ilin əvvəllərində Qarabağda vəziyyət daha da ağırlaşdı. Erməni silahlıları Qarabağın dağlıq hissəsində azərbaycanlılar yaşayan kənd və qəsəbələri mühasirəyə alaraq bir-birindən təcrid edir, daha sonra işğal edərək, dinc əhaliyə divan tutur, evləri, təsərrüfatları qarət edərək yandırırdılar. 1991-ci ilin noyabr - 1992-ci ilin fevral aylarında Cəmilli, Kərkicahan, Quşçular, Malıbəyli, Meşəli, Qaradağlı kəndlərinin işğalı zamanı erməni silahlı dəstələri dinc əhaliyə qarşı hərbi cinayətlər törətmişdilər.

### Sonuncu gülləyə qədər mübarizə aparıldı...

1990-cı il noyabrın 24-də 3 nəfər kənd sakini Xocavənd-Xankəndi yolunun 6 kilometrliyində erməni quldurları tərəfindən vəhşicəsinə qətlə yetirildi. 1991-ci il yanvarın 9-da kəndə gələn UAZ markalı avtomobil ermənilər tərəfindən atəşə tutuldu, bir nəfər öldürüldü, 4 nəfər yaralandı. Onlardan 2-si sonralar aldığı yaralardan dünyasını dəyişdi. Ermənilər 1991-ci il martın 8-də kəndin yaxınlığında 2 nəfəri vəhşicəsinə qətlə yetirdilər. Həmin il iyunun 28-də kəndin 3 kilometrliyindəki fermada 6 sakin - 3 kişi və 3 qadın diri-diri yandırıldı. 1991-ci il sentyabrın 8-də Ağdamdan Qaradağlıya gələn sərnişin avtobusu Xocavənd-Xankəndi yolunun 5-6 kilometrliyində ermənilər tərəfindən atəşə tutuldu. Avtobusdakı 40 nəfərə yaxın sərnişindən 2 oğlan, 6 qadın həlak oldu. 1992-ci il yanvarın 8-də kəndin yaxınlığında daha bir azərbaycanlı vəhşicəsinə qətlə yetirildi, 100-ə yaxın qoyun ermənilər tərəfindən qənimət kimi aparıldı.

1992-ci il fevral ayının 14-də erməni quldurları xarici muzdluların, xüsusilə Xankəndidə yerləşən sovet ordusunun 366-cı alayının texnikasından və canlı qüvvəsindən istifadə etməklə əlaqəsi hər tərəfdən kəsilən, köməksiz qalan Qaradağlı kəndinə hücuma keçdilər. Kənddə olan 104 sakin və 14 əsgər sonuncu gülləyə qədər 4 gün düşmənlə mübarizə apardı. Döyüşlərdə biri qadın olmaqla, 14 nəfər həlak oldu. Silah-sursatı tükənən soydaşlarımız sonda ermənilər tərəfindən əsir və girov götürüldülər, onların növbəti məşəqqətləri başlandı.

### 5 nəfərin taleyi hələ də məlum deyil

Kəndin Bəylik bağı adlanan yerində 23 sakin ermənilər tərəfindən güllələndi, əksəriyyəti silos quyusunda yaralı halda diri-diri basdırıldı. Sakinlərin bir hissəsi Qaradağlı-Xankəndi yolu üzərində yerləşən erməni kəndlərində maşınlardan düşürülərək güllələndi. İki nəfər Zəki bulağında, 2 nəfər Cəmiyyət kəndində öldürüldü. Girovluqda olan 8 nəfər kənd sakininə ermənilər əzab və işgəncələr verərək onları amansızlıqla qətlə yetirdilər. Dörd nəfər müxtəlif dövrlərdə şəhid oldu. Beş nəfərin taleyi bu günə qədər məlum deyil.



Beləliklə, erməni işğalçılarına qarşı 4 il qəhrəmanlıqla mübarizə aparan Qaradağlı kəndi 1992-ci il fevralın 17-də işğal edilərək yandırılıb, dinc əhaliyə qarşı soyqırımı həyata keçirilib. İşğal zamanı 118 nəfər əsir götürülüb, 33 nəfər güllələnib. Ermənilər öldürülənləri və yaralı halda olanları bir yerdə təsərrüfat quyusuna tökərək torpaqlayblar. Ümumilikdə əsir və girov götürülənlərdən 68 nəfəri öldürülüb, 50 nəfəri böyük çətinliklərlə azad edilib. Girov götürülənlərdən 10 nəfəri qadın, 2 nəfəri məktəbli olub. Azad olunanların 5 nəfəri qadınlar olmaqla 18 nəfər aldıqları sağalmaz yaralardan sonralar vəfat edib. Əsirlikdə saxlanılanlara qarşı vəhşi, vandalizm hərəkətləri ilə davranılması, insanların başlarının kəsilməsi, diri-diri basdırılması, dişlərinin çəkilməsi, ac-susuz saxlanmaları, döyülərək öldürülmələri insanlığa qarşı törədilmiş cinayət hadisəsi idi. Ermənistanın dövlət səviyyəsində həyata keçirdiyi soyqırımı cinayəti nəticəsində Qaradağlı kəndində iki ailənin hər birindən 4 nəfər qətlə yetirilib, 43 ailə öz başçısını itirib, 146 uşaq yetim qalıb. Qaradağlıya Ermənistan silahlı qüvvələrinin həmlələri zamanı qətlə yetirilənlərdən 10-u qadın, 8-i məktəb yaşlı uşaq olub. Qaradağlı kəndində 91 nəfər, kənd sakinlərinin hər 10 nəfərindən biri qətlə yetirilib. İşğal nəticəsində

### Vəhşilik və vandalizmin bariz nümunələri!

kənddə 200 ev, 1 mədəniyyət evi, 320 yerlik orta məktəb binası, 25 çarpayılıq xəstəxana binası və digər obyektlər, azərbaycanlılara məxsus tarixi, dini, mədəni abidələr və qəbiristanlıq dağıdılıb. Kəndin 800 nəfərə yaxın sakini məcburi köçkün düşüb.

Tarix unutqanlığı sevmir. Unudulan faciələr təkrarlanmağa məhkum olur. Ona görə də Qaradağlı faciəsini xatırlamaq, gələcək nəsillərə çatdırmaq hər birimizin mənəvi borcudur. Bu, yalnız keçmişə ehtiram deyil, həm də gələcəyə məsuliyyətdir. Xalqımıza qarşı amansız işgəncələrin verildiyi Qaradağlı faiəsindən artıq 34 il ötür. Azad və müstəqil Azərbaycan öz şəhidlərinin xatirəsini uca tutur, qurbanların ruhu qarşısında baş əyir, onların ağrısını yaddaşlarda yaşadır. Çünki Qaradağlı faciəsi xalqımızın qan yaddaşı, ədalətə aparan yolun ağrılı başlanğıcıdır.

*Yeganə BAYRAMOVA*

**Yaxın günlərdə Vaşinqtonda Şülh Şurasının üzvlərinin toplantısı keçiriləcək. ABŞ Prezidenti Donald Trampın "Truth Social"da yazdığına görə, Sülh Şurasına üzv ölkələr fevralın 19-da keçiriləcək ilk iclasda Qəzza sektorunun bərpası üçün 5 milyard dollardan çox vəsait ayıracaqlarını bəyan edəcəklər. Trampın sözlərinə görə, üzv dövlətlər, həmçinin Qəzza sakinlərinin təhlükəsizliyini və sülhü qorumaq üçün Beynəlxalq Sabitləşdirmə Qüvvələrinə və yerli polisə minlərlə işçi heyəti göndərməlidir.**

# 5 milyard dollar...

### Sülh planının ikinci mərhələsi önəmlidir

Qeyd edək ki, Fələstində vəziyyət, xüsusilə Qəzza problemi BMT Təhlükəsizlik Şurasının son iclasında da əsas müzakirə mövzusu olmuşdu. İclasda mövcud vəziyyət "Qəzza üçün potensial dönüş nöqtəsi" kimi xarakterizə edilib. Yanvarın 14-də ABŞ Prezidentinin xüsusi elçisi Stiven Uitkoff Qəzza üzrə sülh planının ikinci mərhələsinin başlandığını elan edib. Bu plan Fələstin radikallarının tərk-silah edilməsini, İsrail qoşunlarının anklavdan çıxarılmasını, orada beynəlxalq sabitləşdirmə qüvvələrinin yerləşdirilməsini və sektorun idarə olunması üçün strukturların fəaliyyətə başlamasını nəzərdə tutur. Donald Trampın 20 bənddən ibarət sülh planının ikinci mərhələsinin başlanması və Sülh Şurasının yardımçı strukturlarının, o cümlədən Qəzzanın idarə olunması üzrə Milli Komitənin və Qəzza üzrə Ali nümayəndənin ofisinin yaradılması sektorda atəşkəs rejiminin möhkəmləndirilməsi üçün mühüm addımdır.

Bununla belə, bölgədə hələ də qeyri-müəyyənlik çoxdur. Bir müddət əvvəl BMT rəsmiləri Qahirədə Qəzzanın idarə olunması üzrə Milli Komitənin nümayəndələri ilə BMT-nin Təhlükəsizlik Şurasının 2803 saylı qətnaməsinə uyğun olaraq əsas xidmətlərin göstərilməsinə, humanitar yardımın çatdırılmasına və bərpa işlərinə hazırlığa BMT-nin necə dəstək göstərə biləcəklərini müzakirə ediblər. Bildirilib ki, Birləşmiş Millətlər Təşkilatı komitəni və Qəzzada bərpa üzrə ağır işə başlayan fələstinliləri dəstəkləməyə hazırdır.

Qəzzanın demilitarizasiyası və etibarlı təhlükəsizlik mexanizmləri isə Milli Komitənin fəaliyyəti üçün əsas şərtlərdir. Əhalinin demək olar ki, hamısı hələ də yardıma ehtiyac duyur, güclü yağışlar və soyuq hava isə adekvat yaşayış yeri olmayan təxminən 1,5 milyon məcburi köçkünün vəziyyətini daha da ağırlaşdırıb. Təhlükəsizlik şəraitinin qeyri-sabitliyi, yüklərin gətirilməsinə qoyulan məhdudiyyətlər, keçid məntəqələrində gecikmələr və marşrutların məhdud sayı səbəbindən humanitar təşkilatlar hələ də Qəzzada zəruri miqyasda fəaliyyət göstərə bilmirlər.

### Qəzza necə bərpa ediləcək?

Qüvvədə olan atəşkəs rejiminə baxmayaraq, Qəzzada hava zərbələri, atəşlər və silahlı toqquşmalar davam edir, ərazidə mülki şəxslər həlak olur. Ona görə də, Qəzzada atəşkəs planının ikinci mərhələsinin həyata keçirilməsi həlledici əhəmiyyət daşıyır və güclü kollektiv öhdəlik tələb edir. Bu, fələstinlilər və israillilər üçün daha sabit və təhlükəsiz gələcəyin əsaslarını qoymaq üçün real imkandır.



### Atəşkəs rejiminə baxmayaraq...

Xatırladaq ki, Donald Tramp Fələstinin HƏMAS hərəkatının tam tərksilah edilməsi ilə bağlı razılaşmanın əldə olunacağına əminliyini ifadə edib. ABŞ Prezidenti yeni yaradılmış Fələstin texnokratik hökumətini dəstəklədiyini də vurğulayıb. Yanvarın 22-də isə Davosda bir sıra ölkələr "Sülh Şurasının Nizamnaməsi" sənədini imzalayıblar. Sülh Şurası dünyada sabitliyin təşviqi, münaqişə zonalarında dayanıqlı sülhün dəstəklənməsi və beynəlxalq təhlükəsizliyin legitimlik, ədalət əsasında bərpası üçün çevik, işlək mexanizm yaratmaq məqsədi daşıyır. ABŞ tərəfindən BMT-nin boşluqlarını doldurmaq üçün təsis edilən bu struktur, konkret sülh modelləri və regional əməkdaşlıq mexanizmlərini reallaşdırmağa xidmət edir.

Sülh Şurasının yaradılmasının əhəmiyyəti aşağıdakı əsas istiqamətlərlə şərtlənir.

-Beynəlxalq Təhlükəsizliyin Yeni Modeli: Təhlükəsizliyin yalnız güc balansı ilə deyil, legitimlik və ədalət üzərində qurulmasını təmin edir.

-Dayanıqlı Sülh və Reinteqrasiya: Münaqişədən təsirlənən ərazilərdə infrastrukturun sülh alətinə çevrilməsi və praktiki reinteqrasiya modellərinin tətbiqinə kömək edir.

-Funksional Əməkdaşlıq: Çevik qərar qəbuletmə mexanizmi ilə mövcud beynəlxalq təşkilatların çatışmazlıqlarını doldururaq, regional və qlobal aktorlar arasında səmərəli əməkdaşlığı artırır.

-Etibarlı idarəetmə: Böhran bölgələrində hüquqi və etibarlı idarəetmənin bərpasına dəstək verir.

Sülh Şurasının fəaliyyətinin hansı nəticələr verəcəyini isə zaman göstərəcək. Çünki bu təsisata müxtəlif ölkələr tərəfindən münasibət birmənalı deyil. Lakin Prezident Tramp Sülh Şurasının öz hədəflərinə çatması üçün prinsipial mövqe nümayiş etdirir. Şuranın fevralın 19-da keçirilməsi nəzərdə tutulan ilk iclasında hansı qərarların qəbul olunacağı diqqət mərkəzindədir. Çünki bu qərarlar dolayısı ilə Sülh Şurasının hansı effekt verəcəyinə dair ilkin təsəvvürlər yaradacaq.

### Martda HƏMAS tərk-silah edilə bilər

Artıq HƏMAS hərəkatının tərk-silah prosesinə mart ayında başlanacağı barədə məlumatlar yayılmaqdadır. İsrailin "Kan" dövlət televiziyasının Sülh Şurasındakı mənbələrə istinadla yaydığı məlumata görə, HƏMAS-ın tərksilahı Qəzzada yeni texnokratik hökumət formalaşdırıldıqdan və hərəkatın əvvəlki səlahiyyətləri həmin hökumətə ötürüldükdən sonra başlayacaq. Bildirilir ki, silahsızlaşdırma prosesinin ilk mərhələsi Qəzzanın cənubunda yerləşən Rəfah şəhərindən start götürəcək.

HƏMAS hərəkatının siyasi bürosunun üzvü və Qəzza sektorundakı rəhbəri Xəlil əl-Heyya isə Qahirədə Sülh Şurasının anklav üzrə nümayəndəsi Nikolay Mladenovla görüşərək danışıqlar aparıb. Lakin danışıqlardan sonra Xəlil əl-Heyya mediaya bildirib ki, tərəflər hərəkatı tərk-silah etmək üçün Sülh Şurasından və ABŞ-dan hələlik heç bir təklif almayıblar. O, görüşdə digər mövzuların da müzakirə olunduğunu deyib.

Belə ziddiyyətli vəziyyət fonunda beynəlxalq ictimaiyyət Şülh Şurasının praktiki fəaliyyət gözləyir. Çünki bütün dünya bu münaqişənin başa çatmasını arzulayır.

*N.BAYRAMLI*

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Spark Press” MMC - 0503548555
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**






# Meymunçiçəyi yenidən gündəmdə...

## Virusun simptomları, riskləri və qorunma yolları...

**Son illər dünya yeni bir virus təhlükəsi ilə daha yaxından tanış oldu. Meymunçiçəyi (mpox) adlandırılan virus qlobal diqqət mərkəzinə çevrilən yoluxucu xəstəliklərdən biridir. Xəstəliyin törədicisi meymunçiçəyi virusudur və bu virus çiçək xəstəliyi ilə eyni virus ailəsinə aiddir. Virusun ilk əlamətləri qızdırma, başağrısı, şişkinlik, bel, əzələ ağrısı və zəiflikdir.**

## 1958-ci illər: İlk kəşf və adlandırma

Meymunçiçəyi virusu ilk dəfə 1958-ci ildə Danimarkada tədqiqat üçün saxlanılan meymunlarda aşkar edilib. Bu meymunlar laboratoriya şəraitində saxlanılırdı və bu heyvanlar arasında yayılan xəstəlik araşdırılarkən virusun fərqli bir poksvirus növü olduğu müəyyən edilib. Virusun adı ilk olaraq meymunlar arasında aşkarlanmasından qaynaqlanır, lakin onun təbii daşıyıcıları kimi bir çox gəmirici növləri, xüsusilə də Afrika gəmiriciləri nəzərdə tutulur.

## İnsanlarda ilk yoluxma halları

Meymunçiçəyi virusu ilk dəfə 1970-ci ildə Konqo Demokratik Respublikasında bir insanda aşkarlanıb. Çiçək xəstəliyinin müvəffəqiyyətlə ləğv edilməsindən sonra, bu hadisə yeni bir poksvirus infeksiyası olaraq diqqət çəkib. 1970-ci illərdə meymunçiçəyinə yoluxmalar əsasən Mərkəzi və Qərbi Afrikanın kənd yerlərində müşahidə edilib. Virus əsasən, yoluxmuş heyvanlardan insanlara keçirdi, xüsusilə də heyvanların ovu, hazırlanması və istehlakı zamanı.

## Afrika xaricində ilk epidemik yayılma

Meymunçiçəyi virusunun Afrika xaricində ilk dəfə böyük miqyasda yayılması 2003-cü ildə ABŞ-da baş verdi. Hadisə, virusun Afrikadan idxal edilən yoluxmuş heyvanlar vasitəsilə yayılması nəticəsində baş verdi. Bu, beynəlxalq ictimaiyyətin meymunçiçəyi xəstəliyinə diqqətini artırdı və qlobal sağlamlıq orqanlarının daha güclü tədbirlər görməsinə səbəb oldu. ABŞ-da baş verən bu epidemiya, virusun insanlara heyvanlardan keçməsinin potensial riskini göstərdi və daha geniş miqyaslı tədbirlərin görülməsinin zəruriliyini ortaya qoydu.

2022-ci ilin may ayından başlayaraq, meymunçiçəyi xəstəliyi dünyanın bir çox ölkəsində yayılmağa başladı və bu, beynəlxalq miqyasda narahatlığa səbəb oldu. Meymunçiçəyi əvvəllər əsasən Afrikada məhdud qalmış bir xəstəlik olaraq bilinsə də, bu yayılma dalğası virusun dünya səviyyəsində daha ciddi bir təhdid olmasını göstərdi. Avropada, Şimali Amerikada və digər qitələrdə yoluxma halları artmağa başladı və bu, Ümumdünya Səhiyyə Təşkilatını (ÜST) və digər beynəlxalq səhiyyə orqanlarını təcili tədbirlər görməyə məcbur etdi.

Bu günlərdə meymunçiçəyi ilə bağlı növbəti həyəcan təbili çalınıb. Belə ki, Rusiyanın Sankt-Peterburqda virusa iki yoluxma faktı rəsmi olaraq təsdiqlənib. Xəstələr orta ağır vəziyyətdə xəstəxanaya yerləşdiriliblər.

## Necə müalicə etmək olar?

Mövzunu “Yeni Azərbaycan”a dəyərləndirən infeksionist-həkim Afaq Məmmədli bildirib ki, xəstəlik qızdırma ilə başlayır, baş və əzələ ağrıları ilə davam edir. Onun sözlərinə görə, qızdırmadan bir neçə, təxminən üç gün sonra səpkilər əmələ gələrək bədənə yayılır: “Burada ən qorxulusu xəstəliyin pnevmoniya əmələ gətirməsidir. Həmin halda letallıq daha yüksək olur.

Meymunçiçəyi virusunun xüsusi müalicəsi yoxdur, lakin çiçək xəstəliyinə bənzərliyinə görə, çiçək xəstəliyindən qorunmaq üçün hazırlanmış antiviral dərmanlar xəstəliyin müalicəsində istifadə edilə bilər. Virusa yoluxmuş şəxsdə müalicənin məqsədi xəstəliyin səbəb olduğu ağrı və yaralar kimi simptomları aradan qaldırmaqdır.

Çox qaşıntılı ola bilən səpkilər qabığa çevrilir və bir müddət sonra azalır, yaralar izlər buraxa bilər. Bu virus yoluxucudur, bədənə dəri sıyrıqları, tənəffüs yolları, gözlər, burun və ya ağızdan daxil olur. Meymun, siçovul və dələ kimi yoluxmuş heyvanlar vasitəsilə və yataq dəsti, paltar kimi əşyalarla da ötürülə bilər. Səpgilərinə görə onu çiçək xəstəliyindən ayırmaq qeyri-mümkündür. Çiçək xəstəliyinə çox bənzəyir, lakin ondan fərqi limfa düyünlərində böyümə əmələ gətirməsi onun xarakterik xüsusiyyətlərindən biridir”.

## Peyvənd 85 faiz qoruyur...

İnfeksionist qeyd edib ki, xəstəliyin peyvəndi var: “Çiçəyə qarşı olan peyvənd meymun virusuna qarşı 85 faiz qoruyur. Bundan başqa, Amerikada qeydiyyatdan keçmiş daha bir vaksin də var, həmin vaksin həm çiçəyə, həm də meymun virusuna qarşı yüksək qoruyuculuğa malikdir”.

Həkim hələ ki, Azərbaycanda meymunçiçəyi ilə bağlı şübhəli halların olmadığını qeyd edib: “Ümumiyyətlə, belə bir hal olan zaman aidiyyəti qurumlar tərəfindən müvafiq açıqlamaq verilir, tövsiyələr olur”.

***Yeganə BAYRAMOVA***

# Planetlərin yaranmasının yeni sistemi müşahidə edilib



Astronomlar mövcud planetlərin əmələ gəlməsi nəzəriyyələrinə meydan oxuyan bir planet sistemi müşahidə ediblər. Bu sistem, ehtimal ki, planeti əmələ gətirən materialın çox hissəsi istifadə edildikdən sonra qaz halındakı qonşularının orbitlərindən kənarda əmələ gəlmiş qayalı bir göy cismi ilə təmsil olunur.

AZƏRTAC “Reuters” agentliyinə istinadla xəbər verir ki, Avropa Kosmik Agentliyinin “Xeops” kosmik teleskopu ilə müşahidə edilən sistem Yerdən təxminən 117 işıq ili uzaqlıqda yerləşən “qırmızı cırtdan” adlanan nisbətən kiçik və tutqun bir ulduzun ətrafındakı Vaşaq bürcü istiqamətində fırlanan iki qayalı və iki qazlı planetdən ibarətdir. İşıq ili işığın bir ildə qət etdiyi məsafədir (9,5 trilyon km).

“LHS 1903” adlanan ulduz Günəşimiz qədər təxminən 50% kütləli və 5 faiz parlaqdır.

Alimlərin diqqətini planetlərin düzülüşü cəlb edib. Ən daxili planet qayalıqdır, sonrakı ikisi qazlıdır. “Planetlərin formalaşması paradiqması öz ulduzlarına yaxın olanların az və ya heç qazı olmayan kiçik və qayalıq cisim əmələ gətirməli olduğunu bildirir”, - deyə İngiltərədəki Uorvik Universitetinin astronomu, “Science” jurnalında dərc olunmuş tədqiqatın aparıcı müəllifi Tomas Uilson bildirib.

Astronom əlavə edib: “Bu, həmin mühitin əhəmiyyətli miqdarda qaz və ya buz saxlamaq üçün çox isti olması və əmələ gələn hər hansı atmosferin ulduzlarından şüalanma yolu ilə çıxarılmasının səbəbi ilə bağlıdır. Əksinə, daha böyük məsafələrdəki planetlərin çoxlu qaz və buz olan soyuq bölgələrdə quruldüğu düşünülür ki, bu da böyük atmosferli qazla zəngin dünyalar yaradacaq. Bu sistem bizə qazla zəngin planetlərin xaricində qayalıq bir planet yaratmaqla əvvəlki nəzəriyyələrə meydan oxuyur”.

Günəş sistemimizdə dörd daxili planet qayalı, dörd xarici planet isə qaz halındadır. Qaz planetlərinin xaricində orbitdə olan Pluton kimi qayalı cırtdan planetlər Günəş sisteminin istənilən planetindən daha kiçikdir.

Astronomlar 1990-cı illərdən bəri Günəş sistemimizin xaricində ekzoplanet adlanan təxminən 6100 planet aşkar ediblər. Yeni müşahidə edilən sistemdəki dörd planetin hamısı Günəş sistemimizin ən daxili planeti Merkurinin Günəşin ətrafında fırlanmasından daha yaxın orbitdədir. Əslində, ən xarici planet Merkuri ilə Günəş arasındakı orbit məsafəsinin yalnız 40 faizi ətrafında fırlanır. Bu, Günəşdən daha az güclü olan “qırmızı cırtdan” ulduzların ətrafında fırlanan planetlər üçün tipik haldır.

İkiqayalı planet super Yer kimi təsnif edilir. Yəni onlar Yer kimi qayalı, lakin on dəfə daha böyükdür. İki qaz planeti mini-Neptun kimi təsnif edilir, yəni, qazlı və Günəş sistemimizin ən kiçik qaz planeti Neptundan daha kiçik, lakin Yerdən daha böyükdür.

Tədqiqatçılar qrupu şübhələnir ki, bu sistemin planetləri öz ulduzlarının ətrafında fırlanan böyük bir qaz və toz diskində birdən-birə əmələ gəlmək əvəzinə, ardıcıl olaraq yaranıblar. “Dördüncü planet qaz tükənən kimi təsadüfən peyda olubmu? Yoxsa atmosferini itirən başqa bir cisimlə toqquşubmu? Sonuncu, Yer-Ay sisteminin məhz belə bir toqquşmanın məhsulu olduğunu xatırlayana qədər xəyali səslənir”, - deyə Şotlandiyadakı Sent-Endryus Universitetinin astronomu və tədqiqatın həmmüəllifi Endryu Kameron bildirib.

Astronomlar hesab edirlər ki, kəşf edilən dördüncü planet də potensial yaşayış üçün yararlı ola bilər. Onun kütləsi Yer kürəsinin kütləsindən 5,8 dəfə böyükdür və orada orta temperatur təxminən 60 dərəcə Selsidir. “Bu planetdəki 60 dərəcə Selsi temperatur Yer kürəsində qeydə alınan ən isti temperatur olan 57 dərəcə Selsi ilə çox oxşardır, ona görə də bu planetin yaşayış üçün yararlı olması mütləq mümkündür. Gələcəkdə “Ceyms Vebb” kosmik teleskopunun müşahidələri bu planetin şəraitini ortaya çıxara və onun yaşayış üçün nə qədər yararlı ola biləcəyini anlamağımıza kömək edə bilər”, - deyə Uilson bildirib.

# “Nar”ın dəstəyi ilə Jestdili.az-ın beynəlxalq inkişaf mərhələsinə start verildi

“Nar”ın “Karlara Dəstək” İctimai Birliyi ilə birgə ərsəyə gətirdiyi “Jestdili.az” platformasının növbəti inkişaf mərhələsinə start verilib. Azərbaycanın ilk elektron jest dili lüğəti olan sayt nitq və eşitmə məhdudiyyətli şəxslərin, eləcə də onların ailə üzvləri və yaxınlarının Azərbaycan jest dilini onlayn şəkildə istənilən yerdə və vaxtda tamamilə pulsuz öyrənməsinə imkan yaradır.

Layihənin yeni mərhələsi çərçivəsində platformaya rus və ingilis dili dəstəyinin əlavə olunması planlaşdırılır. Eyni zamanda ən çox istifadə olunan 100 sözün yerli və beynəlxalq işarət dilində versiyalarının hazırlanaraq beynəlxalq işarət dili bölməsinin yaradılması nəzərdə tutulur. Bununla yanaşı, Azərbaycan işarət dili ilə beynəlxalq işarət dilinin müqayisəsini təmin edən interaktiv modulun hazırlanması, tədris resurslarının genişləndirilməsi, eləcə də texniki xidmət və server infrastrukturunun təkmilləşdirilməsi planlaşdırılır. Qeyd edək ki, hazırda platformada 4000 sözün video tərcüməsi və gündəlik həyatda istifadə edilən 500 cümlə nümunəsi təqdim olunur.

Platformanın yenilənməsi inklüziv cəmiyyət quruculuğuna mühüm töhfə verir. Layihə eşitmə və nitq məhdudiyyətli şəxslərin sosial inteqrasiyasını gücləndirir, onların təhsil və informasiya resurslarına çıxış imkanlarını genişləndirir, eyni zamanda cəmiyyət daxilində ünsiyyət baryerlərinin aradan qaldırılmasına xidmət edir.

Qeyd edək ki, “jestdili.az” layihəsi ən uğurlu sosial təşəbbüs kimi Beynəlxalq İctimaiyyətlə Əlaqələr Assosiasiyası tərəfindən Golden World Award mükafatına layiq görülüb. “Nar”ın həyata keçirdiyi bütün sosial layihələr haqqında ətraflı məlumatı xəbərlər səhifəsindən əldə etmək olar.

Hazırda 2,2 milyon abunəçiyə xidmət göstərən “Nar” son 6 il ərzində Müştəri Loyallığı İndeksi göstəricisinə əsasən Azərbaycanda lider mobil operatordur. Bu uğurun arxasında “Nar”ın ardıcıl şəkildə həyata keçirdiyi müştəriyönümlü strategiya dayanır. Mobil operator istifadəçilərinə sərfəli qiymət qarşılığında dayanıqlı və yüksəkkeyfiyyətli rabitə xidmətləri, müxtəlif internet paketləri və müasir eSim texnologiyası təqdim edir.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**493-16-94**
**498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4948**
**Sifariş: 244**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova